# YAZARLAR

**(aylıq ədəbi-bədii, elmi jurnal)**

**Avqust 2026 (68)**

(2021-ci ildən çıxır)

**Təsisçi və baş redaktor:** Zaur Ustac
**Redaktor:** Həcər Atakişiyeva
**Texniki redaktor:** Tuncay Şəhrili
**Məsul katib:** Araz Şəhrili
**Rəssam:** Səlim Abbaszadə (Norveç)
**Beynəlxalq əlaqələr üzrə menecer:** Khaitov Khusniddin
**Ədəbi tənqid məsələləri üzrə menecer:** Günnur AĞAYEVA
**İctimaiyyətlə əlaqələr üzrə menecer:** Südabə Mətanətli (Məmmədova)

**Fəxri redaksiya heyəti:** Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Lev Tolstoy, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Cek London, Əliqulu Qəmküsar, Vintsas Kreve, Üzeyir Hacıbəyov, Pənahi Makulu, Səməd Vurğun, Şəhriyar, Bayram Bayramov, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Cabir Novruz, İldırım Əkbəroğlu (Füzuli), Alı Mustafayev, Mustafa Müseyiboğlu, Ülvi Bünyadzadə.

**Redaksiya heyəti:** Ayətxan Ziyad (İsgəndərov), Akif Abbasov, Mahirə Nağıqızı, Vüqar Əhməd, Mehman Həsənli, Həcər Atakişiyeva, Təranə Məmməd, Aydın Xan Əbilov, Kamal Camalov, Günnur Ağayeva, Rizvan Fikrətoğlu, Aysel Nazim, Nuranə Rafailqızı, Səma Muğanna, Əli bəy Azəri, Sevindik Nəsiboğlu, Taleh Xəlilov, Südabə Mətanətli (Məmmədova), Leyla Yaşar, Murad Məmmədov, İlqar İsmayılzadə, Aytac İbrahim, Mövlud Ağamməd, Məmməd Gürşadoğlu, Aysu Türkel, Murad Eloğlu (Rusiya), Rafiq Hümmət (Gürcüstan), Faruk Habiboğlu (Türkiyə), Əbülfəz Əhməd (Almaniya), Günay Əliyeva (Norveç), Caroline Laurent Turunc (Fransa). Khaitov Khusuniddin (Özbəkistan)

# BU SAYIMIZDA

Könüllülük haqqında. .......................................................... 3
Baş redaktordan. ................................................................ 4
Yazarlar jurnalı. ................................................................ 5
Kamal Camalov. Elmi məqalə. .......................................... 6
Həcər Atakişiyeva. Elmi məqalə. . ..................................... 14
Sədulla Şirinovun kitabları. ............................................. 22
Günnur Ağayeva. Məqalə. ................................................ 23
Xəlil Mirzə. Hekayə. ........................................................ 27
Məmməd Məmmədli. Yer. ................................................ 34
**Dəniz Aslanlı**. Hekayə. ...................................................... 52
Murad Məmmədov. Şeirlər. .............................................. 54
D.Mirzə. Şeirlər. ............................................................. 58
Zeynəb Cəmaləddin. Şeirlər. ............................................ 62
**Kunduzbü Mamatova təqdim edir**. ................................ 77
Təqdimatlar, təbriklər və müsahibələr. .............................. 81

Salam olsun, Azərbaycanın ilk hibrid jurnalı olan "Yazarlar"ın çox dəyərli yazarları və oxucuları! Bizim yalnız bir məqsədimiz var ki, o da ***"Yaradıcı uşaq - gənclərin dövrü mətbuatda çıxışını asanlaşdırmaq , onların tanınmasına köməklik göstərmək"*** olmaqla məramnaməmizdə aydın şəkildə qeyd olumuşdur. Aylıq ədəbi-bədii, elmi jurnal olan "Yazarlar" kitabxanalar üçün ənənəvi qaydada məhdud sayda nəşr olunur və elektron formatda bir neçə sabit, dayanıqlı, təhlükəsiz platformadan PULSUZ olaraq yayımlanır. Jurnalın bu günə qədər çap olunmuş bütün nömrələrini **"YAZARLAR"** **dan sifariş yolu ilə əldə edə bilərsiniz. Mobil telefonla əlaqə:** (+994) 70-390-39-93
"YAZARLAR, ANCAQ YAZARLAR…" © YAZARLAR



*“İndi müstəqillik tariximizin inkişaf dövrünün qürurverici yeni mərhələsindəyik. İşğaldan azad edilmiş ərazilərimizdə ən qısa zamanda həyatın əvvəlki ahənginə qaytarılması üçün genişmiqyaslı işlər aparılır. İnanıram ki, Ulu Öndərin tövsiyələrini özünüzə şüar seçən siz könüllülər Vətənə və dövlətə bundan sonra da dərin bağlılıq nümayiş etdirəcək, yüksək fəallıq göstərərək Böyük Qayıdışa töhfələr verəcəksiniz.”*

**İlham Əliyev**

***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2023-cü il*

***İlkin mənbə:*** ***President.az***



Zaur USTAC

## BAŞ REDAKTORDAN

***Salam olsun, dəyərli oxucular!***
***Jurnalımızın 68-ci sayı ilə görüşünüzə gəlmişik.***

*Bu sayımızda "Yazarlar" jurnalının redaktoru – Yaradıcılıq Komissiyasın sədri, ədəbiyyatşünas-tənqidçi Həcər xanım Atakişiyevanın marqlı yazısı, jurnalımızın* **İctimaiyyətlə əlaqələr üzrə meneceri** Südabə Mətanətli **(Məmmədova)***nin Qrabağa ilk səfəri haqqında (onu sevimli peşəsi üzrə magistraturaya qəbul olunması münasibətilə təbrik edirik) yazdığı "Yurdumuz çiçəklənir" adlı məqaləsi, D. Mirzənin şeirləri və digər bir-birindən faydalı müəllif yazıları diqqətinizə təqdim olunur.*

*Bütün bununladan əlavə oxuculara xatırladıram ki, Xəlil Mirzənin* ***"Müqəddəs Zəfər" silsilə hekayələrinə*** *daxil olan yeddinci – sonuncu hekayəsi də bu sayımızda yer alıb. Bu hekayələr jurnalımızın həyata keçirdiyi ənənəvi "25 yarpaq" layihəsi çərçivəsində ayrıca kitab şəklində çap olunaraq oxucuların ixtiyarına veriləcək. Jurnalımızın* ***Avqust - 2026 № 08 (68)****-ci sayında təqdimat, təbrik və məlumat xarakterli digər yazılar da yer alıb.*

*Dəyərli oxucular, plana uyğun olaraq əvvəllər olduğu kimi jurnalımızı elektron varintda və ənnənəvi formatda əldə edib, oxuya biləcəksiniz. Xeyirli-uğurlu olsun! Uğurlarınız bol olsun!*

**Hörmətlə: Zaur USTAC**
***"Yazarlar" jurnalının baş redaktoru***

## “Yazarlar” jurnalı öz işini aşağıdakı prinsiplər və sturuktur əsasında qurur:

- Jurnalla əməkdaşlıq edən müstəqil yazarlar “Müstəqil Yazarlar Konfederasıyası” adlı alt qurumda birləşirlər (məqsəd yaradıcılıq əlaqələrini möhkəmlətmək və bir-birinə dəstək olmaqdan ibarətdir. Üzv yazarlar nə qurum, nə də bir-birləri qarşısında heç bir öhdəlik daşımırlar. Üzvülük haqqı nəzərdə tutulmayıb.)
- Gənc yazarlar “Yazarlar dərnəyi” adlı ikinci alt qurumun vasitəsilə mütamadi olaraq ustad yazarlardan faydalı məsləhət və tövsiyələr alırlar. Bundan əlavə dərnək əvvəlcədən müəyyən olunmuş layihələr çərçivəsində jurnalın xüsusi buraxılışlarını təşkil edir, “Yazarlar Akademiyası”nda mütəmadi olaraq yenilənən konkret üsul və proqramlarla gənc yazarların püxtələşməsinə köməklik edir.
- Müəyyən layihələrin təşkili və gənc yazarların elan olunmuş müsabiqələrə təqdim edilmiş əsərlərinin nəşr olunmaq üçün seçilməsinin obyektivliyini təmin etmək məqsədi ilə tərkibi gizli saxlanılan 5 (beş) nəfər təcrübəli və filoloji təhsili olan yazardan ibarət “Yaradıcılıq Komissiyası” adlı üçüncü alt qrum yuxarıda qeyd olunduğu kimi ancaq yaradıcılıq məsələləri ilə məşğul olur. Təqdimatlar, müzakirələr, məsləhətləşmələr və digər müxtəlif tədbirlər “Yazarlar klubu”nda təşkil olunur.
- “Yazarlar” jurnalı bütün sadalanan və burada qeyd olunmamış gündəlik fəaliyyət zamanı ortaya çıxan məsələləri könüllülük qaydasında ictimai əsaslarla (ödənişsiz) həyata keçirir.

**Xüsusi qeyd:**

***Biz heç bir yazıya müdaxilə etmirik. Odur ki, xahiş edirik materialları göndərməzdən əvvəl bir daha yoxlayın, tam hazır, səliqəli şəkildə dərc olunmaq üçün son variantları göndərin.***



# MEMAR ƏCƏMİ NAXÇIVANİNİN ŞƏHƏRSALMA MƏDƏNİYYƏTİNİN İNKIŞAFINDA ROLU VƏ MEMARLIQ İRSİ

**KAMAL CAMALOV**,
**Pedaqogika elmləri doktoru,**
**Naxçıvan Müəllimlər İnstitutunun professoru,**
**Azərbaycan Respublikasının Əməkdar müəllimi**
**"Qızıl Qələm" mükafatı laureatı**
**E-mail: kamal.camalov@gmail.com**
https://orcid.org/0000-0003-1977-7250

**2025-ci il 30 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2026-cı ildə Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi Memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin 900 illik yubileyinin qeyd olunması ilə bağlı Sərəncam imzalamışdır. Bundan əvvəl, 18 sentyabr 2025-ci il tarixində isə Naxçıvan şəhərində Memar Əcəminin abidəsinin ucaldılması haqqında ayrıca Sərəncam qəbul edilmişdir.**
Eyni zamanda, qeyd etmək lazımdır ki, hələ ulu öndər Heydər əliyevin təşəbbüsü ilə 1976-cı ildə Memar əcəminin 850 illik yubileyi Azərbaycanda təntənəli şəkildə qeyd olunmuşdur. Bu, Azərbaycan xalqının öz tarixi-mədəni irsinə verdiyi yüksək dəyərin göstəricisi idi.

Memar əcəminin 900 illik yubileyinin UNESCO çərçivəsində qeyd olunan beynəlxalq yubileylər siyahısına daxil edilməsi isə onun yaradıcılığının yalnız milli deyil, həm də ümumbəşəri mədəniyyət üçün əhəmiyyət daşıdığını göstərir. Bu addım Azərbaycan mədəniyyətinin zəngin irsinin dünya miqyasında tanıdılmasına və təbliğinə mühüm töhfə verir.

Sərəncamda Azərbaycan memarlıq tarixində Memarlıq Cəmiyyətinin unikal rolu, onu yaradan Naxçıvan memarlıq məktəbinin təməli və ümumilikdə Şərq memarlığına verdiyi

böyük töhfə vurğulanır. Qeyd olunur ki, "Möminə Xatun" və "Şeyx Yusif ibn Küseyr" abidələri dünya memarlıq xəzinəsində mühüm yer tutur. Eyni zamanda, bu irsin qorunması, öyrənilməsi və yayılması, elmi tədqiqatların araşdırılması, genişləndirilməsi və gənc nəslin bu irslə tanışlığı ilə bağlı tədbirlərin təşkilinə diqqət yetirilir.

Memar Əcəminin yaradıcılığı təkcə keçmişin tarixi abidəsi deyil, həm də Azərbaycanın mədəni kimliyinin mühüm sütunlarından biridir. Buna görə də onun irsinin qorunması dövlət səviyyəsində məcburi bir vəzifə kimi təqdim olunur.

Bu Sərancamın ideyası təkcə abidə ucaltmaq deyil. Burada daha geniş bir məqsəd var:

Azərbaycan memarlıq tarixinin ən böyük simalarından birinin tanınması;

Naxçıvan Memarlıq Məktəbinin dünya səviyyəsində təqdimatı;

Gənc nəsildə tarixi və maddi irsə marağın artırılması;

Milli kimliyin memarlıq vasitələri ilə qorunması.

Başqa sözlə, dövlət bildirmək istəyir ki, Memar Əcəmini yalnız orta əsrlərin memarı adlandırmaq olmaz, o həm də müasir Azərbaycanın mədəni kimliyinin simvollarından biridir.

Azərbaycan memarlığı tarixində xüsusi yer tutan "Möminə Xatun" və "Şeyx Yusif Küseyr oğlu" abidələri orta əsr memarlıq məktəbinin ən parlaq nümunələrindəndir. Bu abidələr tarixi və memarlıq irsi ilə yanaşı həm də bədii və estetik zənginliyi ilə

seçilir. Üzərindəki ornamentlər, kitabələr və ümumi kompozisiya Azərbaycan xalqının yüksək bədii bacarıqlarını və estetik zövqünü nümayiş etdirir. Bu baxımdan, bu tip rəsmlərdə "gözəllik" anlayışı rəng fərqindən, fiziki naxışların zənginliyindən və memarlıq elementlərinin harmoniyasından daha çoxdur.

"Möminə Xatun" türbəsi Azərbaycan memarlığının şah əsərlərindən biridir. XII əsrdə Memar Əcəmi tərəfindən ucaldılmış bu abidə Naxçıvan memarlıq məktəbinin ən yüksək zirvəsini təmsil edir. Ornamentlərin, kufi əlifbası ilə yazılmış kitabələrin və çalmanın divarlarına yerləşdirilmiş dekorativ elementlərin əksəriyyəti məharətlə hazırlanmışdır. Buradakı naxışların ritmik təkrarı və simmetrik quruluşu abidəyə melodiya və gözəllik verir. Bu ornamentlər bəzək funksiyasını yerinə yetirməklə yanaşı, həm də dərin məna və simvolik məna daşıyır. Formaların dəqiqliyi və daş üzərində incə oyma texnikası Memar Əcəminin yüksək sənətkarlığını bir daha sübut edir.

Bu abidənin diqqət çəkən əsas məqamlardan biri bütöv kompozisiyadır. Yəni, abidənin hər bir hissəsi digər hissələri ilə birlikdə mürəkkəb bir quruluşdur. Buna, həmçinin "Möminə Xatun" tipli məzar daşı üzərindəki abidə də deyilir ki, bu da onu tam bir memarlıq abidəsinə çevirməyə imkan verir. Buradakı ornamentlərin bolluğu və müxtəlifliyi "əlvanlıq" effekti yaradır, lakin bu bolluq həmişə xaos yaratmır, əksinə, nizamlı bir gözəllik yaradır.

"Şeyx Yusif Küseyr oğlu" türbəsi daha sadə, lakin eyni dərəcədə zərif bir memarlıq nümunəsidir desək yanılmarıq. Bu abidə, həmçinin Memar Əcəmi məktəbinin stilistik xüsusiyyətlərini əks etdirir. Türbənin üzərindəki naxışlar "Möminə Xatun" türbəsindən daha mürəkkəbdir, lakin incə oyma bəzəklər və

kitabələr ona xüsusi estetik cazibə verir. Burada Memar Əcəmi əsas diqqəti simmetriya və ölçü balansına yönəldib.

Bu tip bədii ifadə vasitələri sadə görünüşlərinə baxmayaraq, dərin estetik düşüncə ilə yaradılmışdır. Daş üzərində həkk olunmuş naxışlar, kitabələrin düzülüşü və abidənin ümumi kompozisiyası bir ahəngdarlıq qazanır. Bu sadəliyin içindəki zəriflik onun memarlıq dəyərini artırır.

İki abidənin hər birinin ortaq xüsusiyyəti ondan ibarətdir ki, bədii ifadənin əsas vasitəsi rəng, daş üzərində yaradılmış ornamentlərdir. Səlcuq dövrü memarlığında əsas rolu rəsmlər, kitabələr və simmetrik quruluş oynayırdı. Bu, həmçinin abidələrdəki "əlvanlıq" anlayışını fərqli şəkildə – yəni bəzəklərin unikallığı və kompozisiyanın zənginliyi ilə izah etməyə imkan verir.

Bu dəyişikliklər Azərbaycan memarlıq məktəbinin yüksək inkişaf səviyyəsini, eləcə də xalqın mədəni və estetik düşüncəsinin dərinliyini nümayiş etdirir. Memar Əcəminin bu füsunkar əsərləri təkcə keçmişin bir yadıgarı deyil, həm də bu günün ilham mənbəyidir. Bu əsərlər bizə memarlığın təkcə tikinti sənəti deyil, həm də mədəniyyətin, düşüncənin və estetik zövqün ifadəsi olduğunu göstərir.

Memar Əcəmi Naxçıvani təkcə Azərbaycan memarlığı tarixində ayrı-ayrı abidələrin müəllifi deyil, həm də şəhər düşüncəsinin formalaşmasına təsir göstərən nüfuzlu bir mütəfəkkirdir. Onun Naxçıvan memarlıq məktəbi çərçivəsində yaratdığı binalar təkcə estetik və dini funksiya deyil, həm də şəhər məkanının təşkilinin sistemli ifadəsidir. Bu gənc nəsildə yaradacaq marağı təkcə onun tarixinin bir fakt kimi təqdim olunması ilə deyil, həm

də qavranılan və hiss edilən yerli təcrübə kimi təqdim olunması ilə bağlıdır.

Şəhər inkişafı kontekstində sosial yaradıcılığın rolunu anlamaq üçün ilk növbədə onun strukturları şəhər strukturunun aktiv elementləri olan şəhərdən ayrı obyektlər kimi qəbul edilir. Məsələn, Mömünə Xatın türbəsi sadə bir monumental memarlıq nümunəsi deyil, müasir məkanın formalaşmasında aparıcı və mərkəzi rol oynayan bir strukturdur. Müəyyən abidələr şəhərin vizual yaddaşını formalaşdırır, insan hərəkətini sabitləşdirir və məkanın simvolik mərkəzini yaradır. Bu hədiyyə bizə şəhər strukturlarının təsadüfi strukturlar toplusu deyil, düşünülmüş planlaşdırma nəticəsində formalaşan bir sistem olduğunu anlamağa imkan verir.

Bu konsepsiyanı daha dərindən anlamaq üçün keçmiş memarlıq prinsipləri ilə nüfuzlu şəhərsalma arasında paralellər aparmaq olduqca təsirlidir. Tarazlıq, simmetriya və mütənasiblik prinsipləri də davamlı şəhərsalmada əsas rol oynayır. Müasir şəhərlərdə ictimai məkanların sosial funksiyası ilə orta əsr memarlıq komplekslərinin mərkəzi yerinin rolu arasında təəccüblü bir əlaqə var. Bu müqayisə göstərir ki, memarlıq tarixi keçmişdə qalan bir fenomen deyil, əksinə şəhərin dizaynının əsasını təşkil edən universal prinsiplərdən ibarətdir. Beləliklə, şəhər irsi davamlı inkişaf prosesi kimi deyil, statik bir tarix kimi başa düşülür.

Bu baxımdan, vizual və rəqəmsal medianın rolu şəhər irsinin yayılmasında xüsusilə vacibdir. Mətn və illüstrasiyalarla təqdim olunan memarlıq nümunələri çox vaxt mücərrəd qalır və onların məkan məntiqi tam başa düşülmür. Lakin, 3D modelləşdirmə, virtual yenidənqurma və interaktiv xəritələrin köməyi ilə Əcəmi tikililərinin şəhər içində necə yerləşdiyini, hansı baxış oxlarına

malik olduğunu və insan hərəkətinə necə təsir etdiyini görmək mümkündür. Bu nöqtədə, hər bir gənc artıq yalnız məlumat alan deyil, həm də məkanın içindəki “hərəkətli bir müşahidəçidir”. Bu cür təcrübə şəhərsalma anlayışını müşahidə səviyyəsindən real qavrayış səviyyəsinə gətirib çıxarır desək yanılmarıq.

Digər vacib yanaşma, şagirdlərin və ya gənclərin passiv öyrənmədən aktiv düşüncəyə keçməsini təmin edən əsaslı tədris metodudur. Məsələn, onlardan soruşulsa: “Əgər siz XII əsrdə Naxçıvanın şəhər planını hazırlasaydınız, Əcəmi tikililərini harada yerləşdirərdiniz?” və “Bu abidə şəhərdə hansı sosial funksiyanı yerinə yetirə bilərdi?” Kiməsə sual vermək onların düşüncə prosesini dəyişdirir. Bu yanaşmanın nəticəsi olaraq, şəhər planlaşdırıla və həyata keçirilə bilən bir sistem kimi müəyyən edilir. Məlumatı alan şəxs indi düşüncə subyektinə çevrilir və yer haqqında qərar verir.

Bütün bu yanaşmaların ortaq məqsədi Əcəmi irsini təkcə tarixi məlumatda deyil, şəhər düşüncəsinin canlı elementi kimi təqdim etməkdir. Çünki irsin dəyəri onun köhnəliyində və ya qədimiliyində deyil, müasir düşüncəyə nə qədər təsir etmək qabiliyyətindədir. Gənc nəsil abidəyə baxıb onun məkan məntiqini, şəhər əlaqəsini və sosial funksiyasını başa düşürsə, deməli o gənc abidəni passiv tarix abidəsi kimi deyil, aktiv tarix abidəsi kimi düşünə biləcəkdir.

Memar Əcəmi Naxçıvani yaradıcılığı ilə şəhərsalma irsinə marağın artması təkcə tədris metodları ilə deyil, həm də təqdimat fəlsəfəsi ilə bağlıdır. Abidənin şəhər sistemindəki funksional rolu nümayiş etdirilib, keçmişlə indiki zaman arasında intellektual körpü qurulub, vizual texnologiyalarla məkan təcrübəsi yaradılıb və problem əsaslı düşüncə tətbiq edilib. Gənclərin marağı təbii şəkildə formalaşdırılıb. Bu iş şəhərsalma

mədəni irsinin davamlığını təmin edir və onun mədəni kimliyinin gücləndirilməsinə xidmət edir.

Nəticə olaraq, Naxçıvani Memarlıq Cəmiyyətinin yaradıcılığı yalnız bədii və ya estetik maraq yaratmaqla məhdudlaşmır. Bu irs gənc nəsildə vətənə daha dərin bağlılıq, tarixə və mədəniyyətə hörmət hissi formalaşdırmaq potensialına malikdir. Şəhər yalnız daşlardan və binalardan ibarət deyil, həm də xalqın kimliyini, yoldaşlığını və düşüncə tərzini əks etdirən canlı bir orqanizmdir.

Gənc insan Əcəmi irsinə təkcə memarlıq nümunəsi kimi deyil, öz milli varlığının bir parçası kimi yanaşdıqda, o artıq bu dəyərlərin sadəcə müşahidəçisi deyil, qoruyucusuna çevrilir. Bu yanaşma vətənpərvərlik tərbiyəsinin ən güclü formalarından birini – mənəvi məsuliyyət hissini rəsmiləşdirir. Beləliklə, tarixi və mədəni irsə maraq təkcə bilik səviyyəsində deyil, həm də davranış və mədəniyyət sistemində özünü göstərir.

Bu mənada, Memar Əcəmi yaradıcılığının öyrənilməsi təkcə bu günə deyil, həm də keçmişə, gələcəyə qarşı məsuliyyət hissini də gücləndirir. Şəhərsalma irsini dərk edən hər kəs öz şəhərinin və ümumiyyətlə vətəninin mədəni davamlığının iştirakçısına çevrilir. Əminik ki, bu, vətənpərvərlik tərbiyəsinin sağlam əsasını – milli irsi tanımaq, sevmək və qorumaq iradəsini rəsmiləşdirəcək.

**DAHA ÇOX MƏLUMAT BURADA**



**Ayətxan Ziyadın "Zaur Ustacın uşaq poeziyasında bədii sənətkarlıq sistemi yaxud uşaq dünyası Zaur Ustacın gözü ilə" monoqrafiyası haqqında**

Azərbaycan uşaq ədəbiyyatının elmi tədqiqi sahəsində mühüm hadisələrdən biri Ayətxan Ziyadın (İsgəndərov) qələmə aldığı "Zaur Ustacın uşaq poeziyasında bədii sənətkarlıq sistemi yaxud uşaq dünyası Zaur Ustacın gözü ilə" adlı monoqrafiyanın nəşridir. Müəllif bu əsərdə Zaur Ustac yaradıcılığını müasir ədəbiyyatşünaslığın metodoloji prinsipləri əsasında araşdıraraq onun uşaq poeziyasının ideya-estetik, poetik və funksional xüsusiyyətlərini sistemli şəkildə təhlil etmişdir.

Monoqrafiyanın mündəricatı göstərir ki, tədqiqat nəzəri-konseptual əsaslardan başlayaraq XXI əsr Azərbaycan uşaq ədəbiyyatında Zaur Ustacın mövqeyinə qədər geniş elmi istiqamətləri əhatə edir. Əsərdə uşaq ədəbiyyatının mahiyyəti,

milli kimlik, vətənpərvərlik ideyası, türklük və bütöv Azərbaycan düşüncəsinin poetik ifadəsi, ana dili mövzusu, qafiyə sistemi, qadın və qız obrazları, adlar sistemi, bədii obrazların yaradılması texnologiyası kimi mühüm məsələlər ayrıca fəsillər şəklində araşdırılır. Azərbaycan uşaq ədəbiyyatı milli bədii fikrin ən mühüm və dinamik inkişaf edən sahələrindən biridir. Bu ədəbiyyat yalnız uşaqlar üçün yazılmış bədii mətnlərin məcmusu deyil, həm də xalqın mənəvi dəyərlərinin, milli kimliyinin, estetik zövqünün, əxlaqi prinsiplərinin və dünyagörüşünün yeni nəslə ötürülməsini təmin edən mühüm mədəni institutdur. Uşağın şəxsiyyət kimi formalaşmasında, onun vətənə, ana dilinə, milli-mənəvi dəyərlərə bağlılığının yaranmasında bədii ədəbiyyatın rolu əvəzsizdir. Bu baxımdan uşaq poeziyası təkcə estetik zövq formalaşdırmır, həm də pedaqoji, psixoloji və sosial funksiyaları özündə birləşdirən çoxşaxəli yaradıcılıq sahəsi kimi çıxış edir. Müasir dövrdə qloballaşma proseslərinin sürətlənməsi, informasiya texnologiyalarının həyatın bütün sahələrinə nüfuz etməsi və uşaqların informasiya məkanında yeni təsirlərlə üz-üzə qalması uşaq ədəbiyyatına olan tələbləri də dəyişmişdir. Artıq uşaq şairindən yalnız maraqlı və yaddaqalan şeirlər yazmaq deyil, həm də milli düşüncəni, mənəvi dəyərləri, vətənpərvərlik hissini, humanizm ideyalarını müasir bədii-estetik meyarlarla təqdim etmək tələb olunur. Bu baxımdan müasir Azərbaycan uşaq poeziyasında fərdi yaradıcılıq üslubu ilə seçilən müəlliflərin elmi şəkildə araşdırılması xüsusi aktuallıq kəsb edir. Azərbaycan uşaq ədəbiyyatının son onilliklərdə qazandığı uğurlar sırasında Zaur Ustacın yaradıcılığı xüsusi yer tutur. Onun şeirlərində uşağın daxili aləmi, milli düşüncə tərzi, vətən sevgisi, ana dilinə bağlılıq, ailə dəyərləri, təbiətə məhəbbət və yüksək mənəvi keyfiyyətlər sadə, səmimi və eyni zamanda yüksək poetik sənətkarlıqla təqdim olunur. Şairin əsərlərində uşaqlar yalnız hadisələrin iştirakçısı deyil, həm də fəal düşünən, hiss edən,

öyrənən və cəmiyyətə münasibət bildirən obrazlar kimi təqdim edilir. Bu xüsusiyyət Zaur Ustac yaradıcılığını müasir Azərbaycan uşaq poeziyasında fərqləndirən əsas cəhətlərdən biridir. Bədii yaradıcılığın elmi aspektdən araşdırılması ədəbiyyatşünaslığın mühüm istiqamətlərindən biridir. Hər bir sənətkarın poetik dünyası yalnız mövzu dairəsi ilə deyil, istifadə etdiyi bədii ifadə vasitələri, obrazlar sistemi, kompozisiya xüsusiyyətləri, dil və üslub zənginliyi, ritm, qafiyə, poetik struktur və estetik prinsiplər baxımından da qiymətləndirilməlidir. Belə tədqiqatlar həm müəllifin yaradıcılıq fərdiliyini üzə çıxarır, həm də bütövlükdə milli ədəbiyyatın inkişaf meyillərini müəyyən etməyə imkan verir. Bu baxımdan Ayətxan Ziyadın (İsgəndərov) "Zaur Ustacın uşaq poeziyasında bədii sənətkarlıq sistemi yaxud uşaq dünyası Zaur Ustacın gözü ilə" adlı monoqrafiyası Azərbaycan ədəbiyyatşünaslığında mühüm elmi hadisə kimi qiymətləndirilə bilər. Müəllif ilk dəfə olaraq Zaur Ustacın uşaq poeziyasını yalnız mövzu və ideya baxımından deyil, həm də poetik sistem, bədii struktur, obrazlar aləmi, kompozisiya, poetika, funksionallıq və sənətkarlıq prinsipləri baxımından kompleks şəkildə araşdırmışdır. Monoqrafiya geniş nəzəri baza üzərində qurulmuş, müasir ədəbiyyatşünaslığın metodoloji prinsiplərinə söykənərək müəllif yaradıcılığına sistemli yanaşma nümayiş etdirmişdir.

Kitabın məndəricatı onun tədqiqat imkanlarının genişliyini aydın şəkildə göstərir. Əsərdə əvvəlcə uşaq ədəbiyyatının nəzəri-konseptual problemləri araşdırılır, daha sonra XXI əsr Azərbaycan uşaq ədəbiyyatında Zaur Ustacın mövqeyi müəyyənləşdirilir. Bundan sonra müəllif milli kimlik, vətənpərvərlik, türklük ideyası, Bütöv Azərbaycan məfkurəsi, ana dili problemi, qafiyə sistemi, qadın və qız obrazlarının poetik modeli, adlar sistemi, bədii obrazların yaradılması texnologiyası, poetik dinamika, ritm və kompozisiya kimi çoxsaylı məsələləri

elmi təhlilə cəlb edir. Bu mövzuların hər biri ayrıca tədqiqat istiqaməti kimi işlənərək Zaur Ustacın poetik dünyasının bütöv mənzərəsini yaratmağa xidmət edir. Monoqrafiyanın diqqətəlayiq xüsusiyyətlərindən biri də müəllifin yalnız nəzəri mülahizələrlə kifayətlənməməsi, irəli sürdüyü fikirləri Zaur Ustacın konkret əsərləri üzərində təhlillərlə əsaslandırmasıdır. Xüsusilə "Ağıllı Gülər", "Tuncay"a və digər şeirlər poetik baxımdan təhlil edilir, obrazların funksional xüsusiyyətləri, poetik dinamika, ritm, kompozisiya və bədii ifadə vasitələrinin işlənmə prinsipləri elmi arqumentlərlə izah olunur. Bu yanaşma tədqiqatın həm nəzəri, həm də praktik əhəmiyyətini artırır. Monoqrafiyada Zaur Ustac yaradıcılığı digər Azərbaycan uşaq yazıçılarının əsərləri ilə müqayisəli şəkildə dəyərləndirilir, məktəbəqədər təhsil sistemində uşaq poeziyasının funksiyası və pedaqoji əhəmiyyəti ayrıca araşdırılır. Bu isə əsərin yalnız filoloji deyil, həm də pedaqoji və metodik baxımdan dəyərini yüksəldir. Təqdim olunan məqalənin məqsədi Ayətxan Ziyadın bu fundamental monoqrafiyasının elmi məziyyətlərini, tədqiqat metodologiyasını, struktur xüsusiyyətlərini, nəzəri yeniliklərini və Azərbaycan uşaq ədəbiyyatşünaslığının inkişafındakı rolunu qiymətləndirməkdir. Eyni zamanda əsərin Zaur Ustac yaradıcılığının öyrənilməsinə verdiyi töhfə, müəllifin elmi yanaşmasının üstünlükləri və monoqrafiyanın gələcək tədqiqatlar üçün əhəmiyyəti geniş şəkildə təhlil ediləcəkdir. Bu yanaşma kitabın həm müasir Azərbaycan filologiyası, həm də uşaq ədəbiyyatının nəzəri problemlərinin araşdırılması baxımından elmi dəyərinin daha dolğun şəkildə üzə çıxarılmasına xidmət edir. Monoqrafiyanın ən diqqətçəkən cəhətlərindən biri Zaur Ustacın poetik irsinin yalnız mövzu baxımından deyil, həm də poetika, kompozisiya, ritm, dinamika, obrazlar sistemi və bədii sənətkarlıq baxımından kompleks şəkildə öyrənilməsidir. Xüsusilə "Ağıllı Gülər" şeirinin kompozisiya və funksional strukturu, poetik sürət və hərəkətlilik parametrləri barədə aparılan təhlillər müəllifin

müasir poetika nəzəriyyəsinə bələd olduğunu nümayiş etdirir. Kitabın digər üstün cəhəti Zaur Ustac yaradıcılığının digər Azərbaycan uşaq yazıçılarının əsərləri ilə müqayisəli şəkildə araşdırılmasıdır. Bu yanaşma şairin milli uşaq ədəbiyyatındakı yerini daha obyektiv müəyyənləşdirməyə imkan yaradır. Eyni zamanda məktəbəqədər təhsil kontekstində uşaq poeziyasının funksiyası, pedaqoji əhəmiyyəti və tərbiyəvi potensialı da ayrıca tədqiqat predmeti kimi təqdim edilir. Ayətxan Ziyad elmi mühakimələrini faktlar, poetik nümunələr və nəzəri müddəalarla əsaslandırır. Tədqiqatın dili elmi olsa da, oxunaqlıdır və bu xüsusiyyət kitabı həm ədəbiyyatşünaslar, həm magistr və doktorantlar, həm də müəllimlər üçün dəyərli mənbəyə çevirir. Azərbaycan uşaq ədəbiyyatı milli bədii fikrin mühüm istiqamətlərindən biri olmaqla yanaşı, gələcək nəslin mənəvi-estetik tərbiyəsində, milli kimlik şüurunun formalaşmasında və ümumbəşəri dəyərlərin mənimsənilməsində mühüm rol oynayır. Bu baxımdan müasir uşaq poeziyasının ayrı-ayrı nümayəndələrinin yaradıcılığının elmi əsaslarla araşdırılması təkcə ədəbiyyatşünaslıq üçün deyil, həm də pedaqogika, psixologiya və mədəniyyətşünaslıq baxımından xüsusi əhəmiyyət daşıyır. Son illər Azərbaycan uşaq ədəbiyyatı sahəsində aparılan tədqiqatlar göstərir ki, bu istiqamətdə sistemli və fundamental araşdırmalara ciddi ehtiyac mövcuddur. Ayətxan Ziyadın (İsgəndərov) "Zaur Ustacın uşaq poeziyasında bədii sənətkarlıq sistemi yaxud uşaq dünyası Zaur Ustacın gözü ilə" adlı monoqrafiyası məhz bu ehtiyacdan doğan, elmi dəyəri və metodoloji yeniliyi ilə seçilən sanballı tədqiqat əsərlərindən biridir. Monoqrafiyanın ümumi məzmunu göstərir ki, müəllif Zaur Ustac yaradıcılığına yalnız bir şairin poetik irsi kimi deyil, bütövlükdə XXI əsr Azərbaycan uşaq poeziyasının inkişaf meyillərini əks etdirən mühüm bədii hadisə kimi yanaşmışdır. Bu yanaşma əsərin elmi əhəmiyyətini artırmaqla yanaşı, müəllifin tədqiqat obyektini geniş filoloji kontekstdə

qiymətləndirməsinə imkan vermişdir. Monoqrafiyada irəli sürülən nəzəri fikirlər və aparılan poetik təhlillər göstərir ki, Zaur Ustacın yaradıcılığı müasir Azərbaycan uşaq poeziyasının ideya-estetik inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm nümunələr sırasındadır. Əsərin diqqətəlayiq cəhətlərindən biri tədqiqatın sistemli və ardıcıl qurulmasıdır. Müəllif əvvəlcə uşaq ədəbiyyatının nəzəri-konseptual problemlərinə toxunur, daha sonra Zaur Ustacın yaradıcılığını müxtəlif aspektlərdən – ideya məzmunu, poetik strukturu, bədii sənətkarlıq sistemi, obrazlar aləmi, kompozisiya xüsusiyyətləri, ritm, qafiyə, dil və üslub, funksionallıq və poetik dinamika baxımından təhlil edir. Bu metodoloji ardıcıllıq oxucuda bütöv elmi təsəvvür formalaşdırır və müəllifin irəli sürdüyü nəticələrin inandırıcılığını artırır. Monoqrafiyada milli kimlik, vətənpərvərlik, türklük ideyası, Bütöv Azərbaycan düşüncəsi, ana dilinə sevgi və milli-mənəvi dəyərlərin poetik ifadəsi geniş şəkildə araşdırılmışdır. Müəllif əsaslandırır ki, Zaur Ustacın uşaq şeirlərində bu ideyalar sadəcə çağırış və şüar səviyyəsində deyil, yüksək bədii-estetik keyfiyyətlərə malik obrazlar, simvollar və poetik vasitələr vasitəsilə təqdim olunur. Belə yanaşma uşaqlarda milli özünüdərk hissinin formalaşmasına xidmət etməklə yanaşı, onların estetik zövqünün inkişafına da müsbət təsir göstərir. Kitabın mühüm üstünlüklərindən biri də müəllifin poetika məsələlərinə xüsusi diqqət yetirməsidir. Qafiyə sistemi, poetik ritm, kompozisiya quruluşu, bədii obrazların yaradılma texnologiyası, adlar sistemi, qadın və qız obrazlarının poetik modeli kimi problemlər ilk dəfə bu qədər geniş və sistemli şəkildə araşdırılmışdır. Xüsusilə “Ağıllı Gülər” şeirinin kompozisiya və funksional xüsusiyyətlərinin təhlili müəllifin poetik mətnə müasir nəzəri baxışını nümayiş etdirir. Bu cür təhlillər monoqrafiyanın yalnız konkret bir müəllifin yaradıcılığı haqqında deyil, ümumilikdə Azərbaycan uşaq poeziyasının poetik qanunauyğunluqları barədə də mühüm elmi nəticələr

ortaya qoyduğunu göstərir. Əsərdə Zaur Ustac yaradıcılığının digər Azərbaycan uşaq yazıçılarının poetik irsi ilə müqayisə edilməsi də xüsusi elmi əhəmiyyət daşıyır. Müqayisəli təhlil nəticəsində müəllif Zaur Ustacın fərdi yaradıcılıq üslubunu, poetik dünyasının özünəməxsus cəhətlərini və milli uşaq ədəbiyyatındakı yerini daha dolğun şəkildə müəyyənləşdirə bilmişdir. Bu yanaşma tədqiqatın obyektivliyini təmin edən əsas amillərdən biri kimi diqqəti cəlb edir. Monoqrafiyanın digər mühüm cəhəti onun pedaqoji istiqamətdə də aktual əhəmiyyət daşımasıdır. Məktəbəqədər təhsil kontekstində uşaq poeziyasının funksiyalarının araşdırılması, şeirlərin tərbiyəvi və didaktik potensialının qiymətləndirilməsi əsərin praktik əhəmiyyətini artırır. Bu xüsusiyyət kitabdan ali məktəblərdə, müəllim hazırlığında, metodik vəsaitlərin hazırlanmasında və uşaq ədəbiyyatı üzrə elmi araşdırmalarda istifadə imkanlarını genişləndirir. Ayətxan Ziyadın elmi üslubu dəqiq, ardıcıl və əsaslandırılmışdır. Müəllif nəzəri müddəalarını konkret poetik nümunələrlə möhkəmləndirir, elmi nəticələrini faktlara söykənərək təqdim edir. Bu isə monoqrafiyanın akademik səviyyəsini yüksəldən əsas xüsusiyyətlərdən biridir. Əsərin dili elmi xarakter daşısa da, sadə və anlaşıqlı olduğundan geniş oxucu auditoriyası üçün də əlçatan görünür. Bütün bunlar göstərir ki, “Zaur Ustacın uşaq poeziyasında bədii sənətkarlıq sistemi yaxud uşaq dünyası Zaur Ustacın gözü ilə” monoqrafiyası Azərbaycan uşaq ədəbiyyatının tədqiqi istiqamətində yeni elmi mərhələni ifadə edən fundamental araşdırmadır. Kitab yalnız Zaur Ustac yaradıcılığının sistemli elmi təhlili ilə məhdudlaşmır, eyni zamanda müasir Azərbaycan uşaq poeziyasının poetik inkişaf meyillərini, estetik prinsiplərini və nəzəri problemlərini də işıqlandırır. Ayətxan Ziyadın bu monoqrafiyası elmi yeniliyi, metodoloji bütövlüyü, faktoloji zənginliyi və nəzəri ümumiləşdirmələri ilə Azərbaycan filologiyasının mühüm nailiyyətlərindən biri hesab oluna bilər. Əsər gələcək elmi

tədqiqatlar üçün etibarlı mənbə olmaqla yanaşı, uşaq ədəbiyyatı sahəsində çalışan alimlər, müəllimlər, doktorantlar, magistrantlar və bu sahəyə maraq göstərən bütün oxucular üçün dəyərli elmi qaynaqdır. Monoqrafiya Zaur Ustac yaradıcılığının milli ədəbiyyat tarixində layiqli yerinin müəyyənləşdirilməsinə mühüm töhfə verir və Azərbaycan uşaq poeziyasının gələcək elmi tədqiqi üçün yeni istiqamətlər açır. “Zaur Ustacın uşaq poeziyasında bədii sənətkarlıq sistemi yaxud uşaq dünyası Zaur Ustacın gözü ilə” monoqrafiyası müasir Azərbaycan uşaq ədəbiyyatının elmi tədqiqinə mühüm töhfə verən sanballı əsərdir. Kitab Zaur Ustac yaradıcılığının poetik sistemini ilk dəfə bu qədər geniş və sistemli şəkildə araşdırmaqla yanaşı, uşaq poeziyasının nəzəri problemlərinin öyrənilməsinə də yeni elmi baxış gətirir. Monoqrafiya gələcək tədqiqatlar üçün etibarlı elmi mənbə olmaqla yanaşı, Azərbaycan uşaq ədəbiyyatının inkişaf tarixinin öyrənilməsində də mühüm əhəmiyyət daşıyır.

**Müəllif:** **Həcər Atakişiyeva**
*“Yazarlar” jurnalının redaktoru, Yaradıcılıq Komissiyasının sədri, ədəbiyyatşünas-tənqidçi*

**Atakişiyeva Həcər Aslan qızı**

**Həcər Atakişiyevanın yazıları**

**DAHA ÇOX YENİ MƏLUMAT**

**Oxuyun** >> **Gözündə tük var**

**Zaur Ustacın şeirləri haqqında**



## SƏDULLA ŞİRİNOVUN KİTABLARI:

1. *Sədulla Şirinov "Sönməyən qisas" pdf*
2. *Sədulla Şirinov "Gecikmiş etiraf" pdf*
3. *Sədulla Şirinov "Zamanın pəncərəsindən baxanda" pdf*
4. *Sədulla Şirinov "Heç nə olmazdan çox şey olurmuş" pdf*
5. *Sədulla Şirinov "Qudalar" pdf*
6. **Sədulla Şirinov – "Kimdir xoşbəxt?" pdf**
7. **Sədulla Şirinov – "Şəhid atası" kitabı – pdf**

WWW.KİTABEVİM.AZ KİTABEVİM.AZ kitab marketi

**Mustafa Müseyiboğlu adına kitabxana**




**“39” – Bir ömrün poetik salnaməsi**

*(Murad Eloğlunun kitabı haqqında)*

Müasir Azərbaycan poeziyasında hər yeni kitab sadəcə şeirlər toplusu deyil, həm də müəllifin daxili aləminin, həyat fəlsəfəsinin, mənəvi dünyasının oxucu ilə səmimi söhbətidir. Bu baxımdan Murad Eloğlunun “39” adlı şeirlər kitabı son illərdə işıq üzü görən diqqətəlayiq nəşrlərdən biri kimi xüsusi maraq doğurur. Kitab təkcə müəllifin otuz doqquz yaşının poetik hesabatı deyil, həm də bir insanın taleyinin, duyğularının, ağrılarının, sevinclərinin və həyat həqiqətlərinin bədii salnaməsidir. Nəşr “Yazarlar” jurnalının Yaradıcılıq Komissiyasının qərarı ilə “Qarabağ yazarları” seriyası çərçivəsində hazırlanmış, “USTAC.AZ” nəşrləri tərəfindən yüksək poliqrafik səviyyədə çap edilmişdir.

Murad Eloğlu müasir Azərbaycan poeziyasında səmimiyyəti ilə seçilən qələm sahiblərindəndir. Onun poeziyası mürəkkəb bədii konstruksiyalar üzərində deyil, həyatın öz həqiqətləri üzərində qurulur. Şair süni pafosa, ağır metaforalara deyil,

oxucunun ürəyinə yol tapan təbii ifadəyə üstünlük verir. Elə buna görə də onun şeirlərini oxuyan hər kəs misralarda öz həyatından bir parçanı görə bilir.

"39" kitabının ən böyük üstünlüyü müəllifin yaşadığı hissləri gizlətmədən, olduğu kimi oxucuya təqdim etməsidir. Burada sevinc də var, həsrət də var, ayrılıq da var, Vətən sevgisi də, ailə məhəbbəti də, sosial narahatlıqlar da. Kitab bütövlükdə insan ömrünün müxtəlif mərhələlərinin poetik xəritəsini yaradır.

Toplunun əsas ideya sütunlarından biri ailə dəyərləridir. Xüsusilə ata mövzusu kitab boyunca aparıcı xətt kimi davam edir. "Atamdan ötəri darıxıram mən", "Ata", "Biz səni saxlaya bilmirik Ata", "Çox görmə atamı dünya", "Atalar yatağa düşməsin Allah" kimi şeirlərdə müəllif ata itkisini yalnız şəxsi faciə kimi deyil, insanın həyat dayağının sarsılması kimi təqdim edir. Bu şeirlərdə hiss olunan səmimiyyət oxucunu dərhal öz təsiri altına alır. Ata obrazı müəllif üçün həm də mərdliyin, zəhmətin, vicdanın və ailə bütövlüyünün rəmzidir.

Anaya həsr olunan şeirlər də kitabın ən təsirli nümunələri sırasındadır. "Həqiqət anamın sözündə imiş", "Tək səni vəsf edə bilmədim ana", "Qadın" kimi əsərlərdə ana müqəddəsliyin zirvəsində dayanır. Burada ana yalnız ailənin dayağı deyil, insanın mənəvi dünyasının başlanğıcı, mərhəmətin və sonsuz məhəbbətin ünvanıdır. Müəllif ana obrazını yüksək poetik duyğularla təqdim edərək milli-mənəvi dəyərlərin qorunmasının vacibliyini xatırladır.

Kitabın mühüm istiqamətlərindən biri də Vətən mövzusudur. Qarabağ zəfərinin doğurduğu qürur hissi, şəhidlərə sonsuz ehtiram, Azərbaycan əsgərinin qəhrəmanlığı müəllifin poetik düşüncəsində xüsusi yer tutur. "Paradına qurban olum ey əsgər", "Ürəyimi göynədər", "Getmişdim Şəhidlər xiyabanına", "Bayram qabağı" kimi şeirlərdə müəllif pafosdan uzaq, lakin olduqca təsirli və səmimi vətəndaş mövqeyi nümayiş etdirir. Burada Vətən anlayışı təkcə coğrafi məkan deyil, müqəddəs

amal, mənəvi kimlik və milli yaddaşdır.

Murad Eloğlu sevgi lirikasında da öz dəst-xəttini qoruyur. Onun sevgi şeirlərində romantika həyatın acı təcrübələri ilə vəhdət təşkil edir. “Tək sənin xətrinə”, “Gözəllər gözümə baxanda sən gəl”, “Sənin öz yolun var, mənim öz yolum”, “Peşman olarsan”, “Özümü odlara sala bilmərəm” kimi şeirlərdə sevgi yalnız hiss deyil, insanı kamilləşdirən mənəvi sınaq kimi təqdim olunur. Müəllif sevginin yalnız qovuşmaqdan ibarət olmadığını, bəzən ayrılığın, sədaqətin və dözümün də eşqin ayrılmaz hissəsi olduğunu göstərir.

Toplunun sosial məzmunlu şeirləri də xüsusi diqqət çəkir. “Ey pul”, “Çətin”, “Məndə sənin günündəyəm”, “Mən sənə nə nağıl danışım bala?” kimi əsərlərdə müəllif müasir cəmiyyətin sosial problemlərinə toxunur. Yoxsulluq, maddi çətinliklər, insanların bir-birinə münasibətində yaranan dəyişikliklər poetik dillə təqdim olunur. Şair ittiham etmir, hökm vermir; sadəcə həyatın reallığını göstərərək oxucunu düşünməyə vadar edir. Bu xüsusiyyət publisistik ruhun poeziyada uğurlu təzahürü kimi qiymətləndirilə bilər.

Murad Eloğlu ana dili məsələsinə də biganə qalmır. “Öz dilim” və “Ana dilim qəribsəmə” şeirlərində müəllif milli kimliyin əsas dayaqlarından biri olan Azərbaycan dilinin qorunmasının vacibliyini vurğulayır. Kitabın diqqət çəkən cəhətlərindən biri də müəllifin xalq şeirinə bağlılığıdır. Qoşma, gəraylı və digər klassik formalar müasir duyğularla birləşərək yeni nəfəs qazanır. Xalq danışıq dili, atalar sözləri, gündəlik ifadələr və canlı üslub Murad Eloğlunun poeziyasını oxucuya daha da yaxınlaşdırır. O, klassik ənənəyə sadiq qalmaqla yanaşı, müasir insanın daxili dünyasını da uğurla ifadə edir.

Müəllif tez-tez “Muradam” müraciəti ilə özünə üz tutur. Bu bədii üsul şeirlərdə daxili monoloqu gücləndirir və müəlliflə oxucu arasında səmimi körpü yaradır. Oxucu sanki şairin daxili söhbətinin canlı şahidinə çevrilir.

"39" kitabını oxuduqca aydın olur ki, burada hər şeir müəllif ömrünün müəyyən bir mərhələsini əks etdirir. Uşaqlıq xatirələri, valideyn sevgisi, ailə məsuliyyəti, övlad qayğısı, Vətən sevgisi, sosial narahatlıqlar, dostluq, sevgi və həyatın müxtəlif sınaqları poetik şəkildə ümumiləşdirilərək geniş oxucu auditoriyasına təqdim edilir.

Murad Eloğlunun poeziyasında diqqəti cəlb edən əsas cəhətlərdən biri də nikbinlik hissidir. Müəllif ağır həyat hadisələrindən yazsa da, ümidsizliyə qapılmır. O, insanı yaşamağa, mübarizə aparmağa, Allaha inanmağa, ailəyə sahib çıxmağa və milli-mənəvi dəyərləri qorumağa çağırır. Bu baxımdan onun şeirləri tərbiyəvi-estetik mahiyyət daşıyır.

Nəşrin yüksək poliqrafik keyfiyyəti, səliqəli tərtibatı, estetik üz qabığı və peşəkar redaktəsi kitabın ümumi dəyərini daha da artırır. Bu, Azərbaycan kitab mədəniyyətinin inkişafı baxımından da sevindirici hadisədir.

Murad Eloğlu artıq müasir Azərbaycan poeziyasında özünəməxsus yaradıcılıq yolu formalaşdırmış şairlərdən biridir. Onun "Qızıl qələm", "İlin şairi", "Ziyadar" kimi mükafatlara layiq görülməsi və "Yazarlar" jurnalının redaksiya heyətində fəaliyyəti bu yaradıcılığın təsadüfi olmadığını göstərir.

Nəticə olaraq demək olar ki, "39" təkcə şeirlər kitabı deyil. Bu əsər insan ömrünün poetik salnaməsi, ailəyə və Vətənə sevginin etirafı, milli-mənəvi dəyərlərin bədii təbliği, sevinc və kədərin, ümid və mübarizənin səmimi ifadəsidir. Kitabı vərəqləyən oxucu yalnız Murad Eloğlunun həyat yoluna deyil, həm də öz daxili aləminə səyahət edir. Məhz buna görə də "39" müasir Azərbaycan poeziyasında oxunmağa, müzakirə olunmağa və gələcək nəsillərə çatdırılmağa layiq dəyərli poetik nəşrlərdən biri kimi qiymətləndirilə bilər.

*12.07.2026. Bakı.*

**Müəllif: Günnur Ağayeva**

*ədəbiyyatşünas-tənqidçi*

**ZAUR USTAC – ÖVLADIYAM**



**Əvvəli burada:** **Müqəddəs Zəfər: 6-cı hekayə**

**Cabbar babanın vəsiyyəti**

(*Müqəddəs Zəfər: 7-ci hekayə*)

Cabbar baba boz eşşəyini çullayıb ciyənin ucundan darta-darta onu bağçanın kənarı ilə çəkilmiş xəndəyə saldı. Bir daha ətrafa boylandı, heç kim yox idi. Yayın qızmar vaxtı, günün günorta çağı idi. Hüseyn köhnə "Jiquli"sinin yük yerini həyətdə becərdikləri yemişlə doldurub kiçik oğlu Süleymanla bazara getmişdi. Adətən malı dəyər-dəyməzinə bazar alverçilərinə verib qayıdardı. Oturub kilo-kilo satmağa hövsələsi çatmazdı. Kim idi gedib piştaxtadan yer alan, tərəzi pulu verən. Onun heç

əvvəldən alverlə arası yox idi. Həmişə alverçilər gəlib həyətdə alırdılar məhsulu. İndi daha məhsulun uru vaxtı idi, alverçilərdə belə vaxtlar kənd-kənd, həyət-həyət gəzməyə həvəs olmazdı, çünki, məhsulun keyfiyyəti xeyli aşağı düşmüşdü. Bəlkə də bu səbəbdən Hüseyn bazarda ləngiyirdi, yəqin alverçilərlə razılaşa bilməyib özü yer alıb, satır malını. Hər hansı səbəbdən yubanırdısa da, bu işin xeyrinə idi. Evdə olsaydı, atasını heç eşşəyə yaxın getməyə də qoymazdı. Gəlini Seçmə də kəndin ayağına, qızı Sənubər gilə getmişdi. Bu istidə onu qudaları buraxmazdı çölə. Dincini al, hava sərnisin, axşamüstü gedərsən, deyərdilər. Daha bundan münasib vaxt çətin ki, ələ düşərdi.

Cabbar baba bir neçə cəhddən sonra eşəyyin belinə oturub qəddini düzəltməyə cəhd elədi. Son beş-altı ayın içində beli o qədər əyilmişdi ki, yumurlanıb yumağa dönmüşdü. Cəhdinin mənasız olduğunu dərk edib eşşəyi hoşladı.

-Gedək, ay illərimin yol yoldaşı. Day bunnan sora səni kəndin o baş-bu başına hoşlayan döyüləm. Day buna taqətim qalmıb. Gedək, mənim taylarım çoxdandı ordadı. Bir mən sintarıb qalmışam bu fani dünyada, cəhənnəm əzabı çəkməkçün. Gedək, bu mənim son səfərimdi. Qəbiristanlığa çatan kimi açıb buraxacam səni. Day ordan geri dönən döyüləm. Gedək…

Darvazanının bir tayını qabaqcadan aralamışdı ki, eşşək rahat keçə bilsin. Eşşəkdən düşüb darvazanı bağlamaq fikrinə düşsəydi, sonra təzədən minmək problemilə qarşılaşacaqdı. Həm də ki, arxayınçılığı vardı, kəndin mal-heyvanları örüşdə idi. Qonşulardan kiminsə heyvanı həyətə girib mərdimazarlıq eləyən deyildi. Belə də ki, darvaza günlərlə, aylarla açıq qalsın, bir çöp də oğurlayan olmazdı bu kənddə. Olsa olsa, qonşu Şahmuradın keçiləri daraşardı meyvə bağına. Keçiləri də qoyunlara qatıb ötürmüşdü naxıra Şahmurad kişi.

Torpaq yolda toz qopara-qopara qəbiristanlığa çatıb eşşəkdən düşdü, əgər buna “düşdü” demək olardısa- özünü sürüşdürüb bir təhər yerə atdı. Ombasında yaranan ağrı bir müddət onun yerdən qalxmasına mane oldu. Boz eşşək qoca sahibinin bu vəziyyətini anlayırmış kimi yaxınlaşıb onu iyləməyə başladı. Qoca ciyədən yapışıb özünə tərəf dartdı, eşşək yerə mıxlanıb sakit tərzdə sahibinə baxırdı. Nəhayət, ona kömək edə bildiyindən məmnunmuş kimi başını qaldırıb iki dəfə anqırdı. Cabbar baba birinci olaraq ciyəni eşşəyin boynundan açdı, sonra onun qarnının altına tərəf əyilib çulun kəndirini boşaltdı. Sürüyüb yerə atdı.

-Day sən azadsan, mənim sadiq dostum, get.

Eşşək durduğu yerdən tərpənmədi. Cabbar baba buna əhəmiyyət vermədi, irəli yeriyib doqqazın cəftəsini qaldırdı, həyətə girdi. Fatəhə verib, qəbiristanlıqda uyuyan ölülərun ruhuna, şəhidlərin ruhuna, cəmi dünyadan köçən müsəlman əhlinin, alimlərin, din əhlinin- yadına düşən düşən bütün vəfat eləşmişlərin ruhuna salavat çevirib geri döndü. Ciyəni, çulu götürüb qəbiristanlığın darvazasına yaxın, sol tərəfdə yan-yana düzülmüş şəhid məzarlarına tərəf getdi. “Naməlum əsgər”in məzarının ayaq tərəfində yükünü yerə qoyub yenə fatəhə verdi. Sonra qəbiristanlığı gəzib dolaşmağa başladı. Atasının, anasının və böyük qardaşının məzarları da daxil, bütün məzarları ziyarət edib qayıtdı bayaq yükünü boşaltdığı yerə. Çulu səliqə ilə yerə sərdi, əynundəki köhnəlmiş yay pencəyinin cibindən dəftərini çıxarıb əyləşdi. Əhd elədiyi kimi Yasin Surəsini oxumağa başladı.

Cabbar babanın yaşını düz-əməlli bilən yox idi. Yüzü adladığını hamı bilirdi. Özündən soruşanda da deyirdi ki, Nikolayı taxtda görmüşəm. Birinci “Erməni-Müsəlman Davası”nı (1905-1907-ci illər) yaxşı xatırlayırdı: “Mənim yeniyetmə

cağlarım idi, ermənilər tez-tez kəndlərimizə basqın edirdilər. Dədəmin qoşalüləsin gizlicə götürüb gedib qoşulmaq istədim kəndimizin cavanlarına. Kürqırağı kəndlərin cavanları dəstə düzəldib basqınçılarla vuruşurdular. Bizim cavanlar da onlara qoşulmuşdu, Qobu deyilən yerdə ermənilərin qabağını kəsib müqavimət göstərirdilər. Axşama tərəf qılçamdan yaralandım. Tüfəngimi alıb özümü də yaxınlıqdakı mal fermasının bir tövləsində gizlətdilər ki, atışma qurtaranacan bayıra çıxma... Ancaq ikinci davada (1915-1920-ci illər) uzun müddət iştirak eləmişəm, əsgər kimi. O dava başa dava idi. Ermənilər böyük dəstələrlə gəlirdilər üstümüzə. Rus əsgərləri də onlarla birləşmişdilər. Hətta malakanlar da onlara kömək edirdilər. Yenə kürqırağı kəndləri çapıb talayır, qaniçənlik eləyirdilər. Gəncədən xəbər gəlmişdi ki, köməyinizə böyük bir ordu gəlir. Başçıları da Nuru Paşa idi. Kəndimizin cavanlarıynan sözü bir yerə qoyub yazıldıq o orduya. Erməniləri Nefçalayacan qovduq. Bir hissəsini də Bakıyacan...

...Gözünü açanda özünü yataqda gördü. Hüseyn, qızları, gəlini, nəvələri, kəndin ağsaqqalları, ağbirçəkləri- hamısı ətrafında idi. Hüseyn gözünün yaşını töküb hönkürüdü:

-Başuva dönüm ay dədə, niyə belə eləyisən axı? Məni niyə rüsvay eləyirsən el içində, nə günah eləmişəm?

Cabbar babanın qəbiristanlığa getməsi əlbəttə ki, səbəbsiz deyildi. Babanın öz adını qoyduğu, Hüseynin böyük oğlu 1993-cü ilin payızında Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə itkin düşmüşdü. O vaxta kimi kəndə artıq 8 nəfərin meyiti gətirilmiş, qəbiristanlıqda şəhidlər üçün ayrılmış ayrıca yerdə dəfn olunmuşdu... Bir gün də xəbər gəldi ki, Cabbarın da meyitini gətirirlər. Kənd əhli hamılıqla yığışdı Hüseynin həyətinə. Tabutu açanda baxdılar ki, meyit başqasınındır. Onu

məsciddə yuyub, kəfənləyib tez xəbər göndərdilər Rayon Hərbi Komissarlığına. Dəfn mərasimi təxirə salındı. Səhəri gün tezdən Komissarlıqdan iki nəfər zabit və bir neçə mülki şəxs gəldi. Onlar da itkin düşən bağqa əsgərlərin yaxınları idi. Ancaq meyiti tanıyan olmadı. Onu el adəti ilə dəfn elədilər. İki ay sonra yenə Komissarlıqdan başqa bir dəstə gəldi, qəbri açıb meyitə baxış keçirdilər. Ancaq, bu dəfə də onu tanıyan olmadı. Kənd əhli hadisədən xəbər tutub axışdı qəbiristanlığa. Cabbar babanı da maşına mindirib gətirdilər. Uzun mübahisədən sonra qərara alındı ki, bir də bu məqsədlə gələn olsa, qəbri açmağa qoymayacaqlar. Onsuz da meyit artıq tanınmaz vəziyyətdə idi. Cabbar baba elə orda üzünü ağsaqqallara tutub dedi:

-Sizi and verirəm o böyük Yaradana, məni bu əsgərin məzarının aşağı tərəfində dəfn eləyərsiz. Mən Cabbar balamın iyini ondan alacam.

Kəndin baş mollası hesab olunan Hacı Abdulla, digər ağsaqqallar buna etiraz elədilər. Hüseyn nə illah elədisə, atasını yola gətirə bilmədi. “Ay dədə, başuva dönüm, valideynlərinin yanında sənin öz yerin var axı. Özün vəsiyyət eləmişdin axı, məni dədəmnən anamın yanında basdırın.” –deyib dil tökdü. Kişi iki ayağını bir başmağa dirəyib dediyindən dönmədi. Axırda onu ovutmaq üçün razılıq verdilər.

Ancaq, bununla da məsələ həllini tapmadı. Bir müddət sonra yenə bir dəstə gəldi ki, bəs meyitin yaxınlarıyıq, çıxarıb aparırıq. Yenə camaat tökülüb gəldi, aləm qarışdı. Bu dəfə qəbiri açmağa imkan vermədilər…

Camaat köməkləşib qəbiristanlığı abadlaşdırdı. Əslən bu kənddən olan bir iş adamı qəbiristanlığın ətrafına metal tordan

hasar çəkdirdi, "Şəhidlər xiyabanı"nın girişində bulaq tikdirdi, su çəkdirdi, şəhidlərin məzarlarını mərmər daşla bəzətdirdi. Həmin məzarın baş daşına da "Naməlum əsgər" yazısını həkk elətdirdi.

Cabbar baba gecə yuxusunu qarışdırmışdı. Nədənsə, ürəyinə dammışdı ki. yenə gəlib "Naməlum əsgər"in ruhunu narahat eləyəcəklər. Ona görə də sakitlikdən istifadə eləyib gəlmişdi qəbiristanlığa, özü demiş- öz son mənzilinə ki, nəbadə-nəbadə kimsə yaxınlaşmasın o məzara…

-Ağsaqqal, sən bu elin, obanın böyüyüsən. Kürün Şirvan tayında, bu yaxın kəndlərin heç birində sənin yaşında olan ikinci bir kimsə yoxdu. Sənin sözün hamımızçün qanundu, dedin, qurtardı. Dədəmin goru haqqı, imkan vermərəm o qəbrə kimsə yaxın düşə. Onda mən Abdulla olmaram ki, gəlib başımızın üstünnən iş görələr,- Hacı Abdulla dil-dil ötürdü. Danışmağa pərgar adam idi. Boş yerə baş molla deyildi ki, dilinə görə diyirçəyi də vardı… Cabbar baba ağır-ağır ətrafındakıları süzüb elə həmin tərzdə də bunları deyə bildi:

-Hamınızdan halallıq istəyirəm.

Hamı bir ağızdan: "Halal xoşun olsun! Halal-halal!"-dedi.

-Hacı, başda Quranı,- üzünü Hacı Abdullaya tərəf çevirdi.

…Elə istədiyi yerdə də dəfn olundu. İkinci Qarabağ Müharibəsinin getdiyi müddətdə şəhid məzarlarının sayı xeyli artsa da, "Naməlum əsgər"in məzarı yanında bir qəbirlik boş yer saxlamışdılar, hər ehtimala qarşı. Bunu da Cabbar baba vəsiyyət eləmişdi: "Birdən balam tapılar, onu da o biri balamın ("Naməlum

əsgər"in) yanında dəfn edərsiz. İşdi, əgər sağ-salamt gələrsə, nə gözəl, ruhum day da şad olar,"- demişdi.

***

Üç il idi ki, Vətən Müharibəsi Ordumuzun möhtəşəm qələbəsi ilə başa çatmışdı. İşğaldan azad olunan yerlərdə geniş tikinti-quruculuq işləri aparılırdı.

Hüseyn kişi bu illər ərzində bir an olsun belə ümidini itirməmiş, oğlunu axtarmışdı. Getmədiyi dövlət orqanı, açmadığı qapı qalmamışdı. Axırda əlacsız qalıb üz tutmuşdu baxıcılara. Maşınını, inəklərini, camışını satıb onlara yedizdirmişdi. Bu rayon sənin, o şəhər mənim, deyib, gəzmişdi. Hamısı da "tapılacaq" deyib onu arxayınlaşdırmağa çalışmışdı. Çox yorulmuşdu, artıq onun da belinin donqarı çıxmışdı. O, enlikürək, pəhləvan cüssəli kişidən bir əsr-əlamət qalmamışdı... İndi isə o, arvadı Seçməni də yanına alıb qəbiristanlığa gəlmişdi.  Atasının məzarı önündə diz çöküb hönkür-hönkür ağlayırdı. Bu dəfə sevinc göz yaşları idi onun yarıqıyılmış gözlərindən süzülən:

-Qurbanın olum, ay dədə, Cabbarımız tapıldı. Onun sonuncu döyüş yerində kütləvi məzarlıqlar aşkarlandı. Cabbarımızın nəşinin də o şəhid olmuşların arasında olduğu ekspertiza yoluynan təsdiqləndi. Gətirmişik Cabbarımızı, ay dədə. Gəldi yanıana, sən istədiyin yerdə, səninlə üzbəüz yatacaq balamız...

***05.11.2025***
**Son**
**Müəllif: Xəlil Mirzə,**
***Şair-publisist, AYB-nin üzvü***



***Yer***

“SpaceX” Mars planetinə göndəriləcək bütün missiyaları ləğv edib. İlon Maskın bu qərarı ABŞ vətəndaşlarından çox mütəxəssisləri məyus edib. Belə ki, ölkənin aparıcı astrofizika alimləri Marsdan imtina səbəbini heç cürə anlaya bilmirlər. Küçələrdə etiraz aksiyaları günü-gündən artır. Sakinlər əllərində “Back to the Mars Matter” plakatları ilə öz etirazlarını bildirirlər. Daha bir qrup gənc “Mars şokoladı ilə başımızı aldatmayın” şüarı ilə divarları yazıq-yazıq edərək ictimaiyyətin diqqətini çəkməyə çalışırlar. Səkilərdə, yollarda, dükanların qarşısında “Mars”, “Snickers”, “Milky Way” şokoladları ayaq altında tapdalanır. Bunun qarşılığında İlon Mask heç də narahat görünmür.

Ohayo ştatına ezam olunmuş xüsusi müxbirimiz Eypril Onil yeni filmlərin təqdimatına toplaşan holivud ulduzları arasında İlon Maskı görüb. “Sentrum” hotelindən canlı bağlantı yaratmağa çalışaq:

– Eypril, buyurun.

(Müxbir əlində mikrofon, fonda isə İlon kino ulduzları arasında rəqs edir.)

– …Son zamanlar İlon Maskın verdiyi açıqlamalar ümidverici səslənmir. Belə ki, "SpaceX"in yaradıcısı uçuşların nə zaman bərpa olunacağı sualına "Zaman nisbidir, məndən yox, Enşteyndən soruşun" kimi qeyri-adekvat cavablar verir. Bəzən isə o, media ilə ünsiyyətdən tamamilə yayınır. Biz indi "Sentrum" hotelində təşkil olunan ziyafət zalındayıq. Ümid edirik rəqs meydançasını ələ alan İlon bizimlə səmimi olacaq və hansısa bir dəqiq məlumatı bölüşəcək.

– Cənab İlon, siz "Mars İncorporated" şirkətinə zərbə vurmaq üçün bunu edirsiz, yoxsa? Amma məsələyə ciddi yanaşsaq… Yəni, doğurdan biz heç zaman Marsa gedə bilməyəcəyik?

İlon Mask baxışlarını yuxarı, bir qədər də sola çəkərək 5 saniyəlik fikrə gedir sonra üzünü müsahibinə tutur:

– Mən sizə bir söz demək istəyirəm. Amerika film sənayesi son onillikdə inanılmaz dərəcədə fərqli kontent yaradıb. Əlbəttə, bu insanların məhsuludur. Amma biz süni intellektin köməyi ilə kinonu elə bir səviyyəyə qaldıracağıq ki, orada qəhrəmanlar siz olacaqsız. Filmin çəkilişləri artıq başlayıb. Odur ki, sizə premyeranı gözləməyi tövsiyə edərdim.

Eypril Onil üzünü kameraya tutaraq: "Görəsən premyera sözünün arxasında nə gizlənir? Ümid edirik söhbətin filmdən getmədiyini yaxın zamanlarda hamımız biləcəyik. Hələlik bu qədər. Söz yenidən sizdədir".

Mayor Hümbətov televizoru söndürüb zalda əyləşən qara kostyumluları bir-bir gözdən keçirdi:

– Nə düşünürsüz, cənablar? Adam doğrudan Marsa getmək istəmir. Kim öldü, kim qaldı, şirkətə maraqlı deyil. Yəqin başa düşürsüz də, premyera məsələsi diqqəti yayındırmaq üçündür.

– "SpaceX" pul xərcləmək istəmir? Yoxsa... – çiyinlərinin üstünə kəpəyi tökülmüş El-İlan maraqlandı. Digərləri ortada gedən söhbətə qulaq asırdı.

Mayor Hümbətov kreslosuna yayxanaraq:

– Bu vaxta qədər Marsa robotlar uçurdu, indi isə insan göndəriblər. Məncə ora getməyin heç bir nəticə verməyəcəyini anladıqları üçün xərcləri kəsiblər, – dedi.

– Bəlkə qorxurlar? Yadınızdadırsa, bundan əvvəlki missiyada gəminin yaxınlığında bir UNO fırlanırdı. Yol boyu obyekt gəmidən əl çəkmirdi. Buna baxmayaraq robotlardan ibarət heyət təhlükəsiz eniş etdi.

– Ola bilsin hansısa bir xəbərdarlıq alıblar, buralar sizlik deyil, yaxud da buna bənzər başqa bir şey.

– Sizlik deyil, nə mənada?

– Bax elə mən də sizin kimi bu suala cavab tapmaq istəyirəm, – deyib əlində tutduğu qələmin düyməsini tez-tez sıxıb buraxdı: "çık-çık-çık".

El-İlan barmaqlarını saçlarında gəzdirdikcə tüklərinin dibindən tökülən kəpək dənələri qar kimi qara pencəyinin üstünə ələnirdi.

– Biz özümüz uçsaq necə, mümkündür?

Mayor Hümbətov “AzərSpace”in hazırladığı “Dan ulduzu” kosmik gəmisinin maketinə baxdı; düz qarşısında idi

– Vəziyyət Marsın səthinə enib sonra da geri qayıtmağı tələb edir. İlon Maskda olan texnologiya bizdə yoxdur. Bundan başqa bizim o qədər yanacağımız hardandı…

– Bəs, bizim “SpaceX”lə əlaqələrimiz necədir? Xahiş etsək, onlar falkonlardan birini bizə icarəyə verər? Necə bilirsiz, bəlkə maraqlanaq?

– Güman ki pulun müqabilində razılaşarlar, amma əvvəlcə ora gedə biləcək qəhrəmanı tapmaq lazımdı.

Qara kostyumlu çiynindəki kəpəyi əli ilə təmizləyərək:

– Bəs, ekipaj iki nəfərdən ibarət olsa necə? – deyə, soruşdu.

– Yox, ikinci adama ehtiyac yoxdur.

– Mən adam nəzərdə tutmuram. Siçan ola bilər, ağzı yağa bulaşmış siçan, yaxud da suilanı, it. Başqa sözlə, bioloji varlıq.

Qara kostyumlular təəccüblə bir-birlərinin üzünə baxıdlar.

– Siçan nəyimizə gərək?

– Biz həqiqəti öyrənməyə çalışırıq, elə deyilmi? Bilmək lazımdır ki, bu məsələ tək insanla bağlı olan şeydir, yoxsa bütün canlılara şamil olunur?

– Fikrinizlə razıyam.

– Özü də bu məsələni elə bir adam çözməlidir ki, elmdən anlayışı olsun.

Kapitan qələmi barmaqlarının arasında fırladıb ayağa qalxdı. Tapşırıq aydın idi. Daha heç bir suala ehtiyac qalmamışdı.

– Cənablar, hələlik bu qədər. Fikirləşin, ağlınıza bir ideya gəlsə deyin. Amma unutmayın ki, vaxtımız məhduddur, qısa zamanda bir qərara gəlməliyik.

Mütəxəssislər arasında El-Yalan kod adında boz kostyumlu da əyləşmişdi. Zaldakılar bir-bir otaqdan çıxanda mayor Hümbətov boz kostyumlunu saxladı:

– El-Yalan, siz qalın.

Növbəti gün El-Yalan Elmlər Akademiyasının qarşısındakı skamyada oturub əlindəki planşetlə dosyeləri vərəqləyirdi. Bir-bir Beynəlxalq Kosmik Stansiyasında tapşırıqda olanların tərcümeyi-halını oxuyurdu. Bir nəfər göstəricilərə tam uyğun idi. Özü də əsl alim. Ona da məhz beləsi lazım idi ki, vəziyyəti elmi tərəfdən analiz edə bilsin. Diqqətlə Kapitan Musabəyovun dosyesini oxumağa başladı.

Musabəyov həmin vaxt divanda oturub televizorda bir-bir kanalları çevirirdi. Axşam süfrəsi açmış arvadı iri buluddakı aşla buğlana-buğlana təzəcə otağa girmişdi ki, mobil telefona zəng gəldi. Kişi ağır-ağır yerindən qalxıb, “mən götürərəm əziyyət çəkmə”, deyərək əlini telefona atdı. Gözünü ekranda tanımadığı nömrəyə zilləyib fikirli-fikirli düyməsin basdı.

Xəttin o biri ucunda ciddi, bir qədər də cır səslə danışan şəxs özünü təqdim etmədən birbaşa mətləbə keçdi:

– Kapitan Musabəyov, adımı deyə bilmərəm, amma hardan zəng vurduğumu təxmin edə bilərsiz. Yoldaş kapitan, siz məni xatırlamalısınız. Beynəlxalq Kosmik Stansiyada baş verən bir məsələni müzakirə etmək istəyirəm. Zəhmət deyilsə, işlədiyiniz müəssisənin qarşısındakı parka gəlin.

Kapitan Musabəyov dərhal vəziyyəti anladı. Ona kapitan deyə müraciət etmişdilərsə, demək köhnə iş yerindəndi. Yenə kosmik uçuşlar, aylarla Yerin başına dolanmaq. Çoxdandır bu peşənin daşını atmışdı, daha ayağını yerdən üzmək istəmirdi. Elmi dərəcə alandan sonra yerdə qalan həyatını yeni işinə və ailəsinə həsr etmək istəyirdi. Bununla belə başa düşürdü ki, yaxasından yapışdılarsa əl çəkməyəcəklər.

– Nə vaxt, saat neçədə?

– Elə indi gəlin, gecikməyin!

Musabəyov narazı-narazı mobil telefonu masanın üstünə fırıldatdı, qara “sportivni”sini soyundu və tələm-tələsik şalvarını əyninə keçirdi. Sonra mavi zolaqlı köynək, üstündən də pencək. Hazır.

– İmkan verməzlər də! Otur ye, televizora bax, bir azdan qayıdıram.

Qapıdan çıxanda yoldaşı səslədi:

– Telefonun qaldı...

Gecə vaxtı, müəmmalı bir zəngdən sonra tanımadığın insanla görüşmək qaranlıqda kanalizasiya lyukuna düşmək kimi bir şeydi. Quyunun nə dərəcədə dərin olduğunu təxmin etmək mümkün deyil.

Ekranda kontaktlara baxa-baxa pilləkənləri enən Musabəyov özünü sığortalamaqdan ötrü köhnə tanışlardan birinə zəng vurmaq istədi, ancaq nə düşündüsə, dayandı. Fikirləşdi ki, orbital uçuşlar barədə kiminləsə məsləhətləşmək elə də yaxşı fikir deyil. O, çalışdığı idarənin məxfi qurumlarla əlaqəli olduğunu düşünüb əvvəlcə vəziyyəti öyrənməyi münasib bildi.

Binadan çıxanda tünd kostyumlu bir nəfərin ona doğru addımladığını hiss edib dayandı. Başa düşdü ki, nəzarətdədir.

– Kapitan Musabəyov, uzağa getməyə ehtiyac yoxdur, maşın burdadır, – deyib əlinin işarəsi ilə ona yolu göstərdi.

Onlar həyətin başındakı "Şevrolet"ə olan qırx addımlıq məsafəni kəlmə kəsmədən qət etdilər.

Yol boyu naməlum kostyumlu maşını ağzına su alıbmış kimi idarə edirdi. Musabəyov da arabir oğrun-oğrun adamın kostyumuna baxıb fikrə gedirdi: "Bu, məndən nə istəyir görəsən? Harda səhv etmişəm, nəyi düz eləməmişəm ki, məni sorğu-suala tuturlar?

Bəlkə işləri düşüb mənə? Hə, yəqin onlara lazımam. Amma pencəyi tam qara deyil, işıq düşəndə rəngi daha çox boza çalır”.

Şəhər qırağında ucqar bir göydələn. Burada nə zaman olduğunu xatırlamırdı. Binanı da deyəsən yeni inşa etmişdilər.

Maşından düşüb girişə doğru addımladılar. Boz kostyumlu Musabəyovdan heç nə soruşmadığı üçün Musabəyov da artıq suallar vermirdi. Amma əsas sualın cavabını elə girişdəki lövhənin üzərində qızılı hərflərlə həkk olunmuş qurumun adında tapdı: Orbital Qüvvələr Komandanlığı. Altında isə Departament-2 yazılmışdı. “Bu adam tapşırığı icra edəndi. Böyüklərinin biri ilə məni görüşdürmək istəyir”, – deyə düşündü.

Liftlə 5-ci mərtəbəyə qalxdılar sonra dəhlizdən sağa burulub uzunsov və alaqaranlıq bir otağa daxil oldular. Konfrans zalı idi. Musabəyov dərhal 180 dərəcəlik baxışlarla məkanı beyninə yazdı. Yuxarıda nəzarət kamerası, sol tərəfdə şüşəbənd, qarşıda masanın üzərində kosmik gəmi maketi, sağda isə təlimat cədvəlləri. Elə Musabəyovun düşündüyü kimi oldu, içəridə onu gözləyən vardı. Mülki geyimdə, üzü yenicə taraş olunmuş bir şəxs Musabəyovu görən kimi “buyurun, çəkinməyin yoldaş kapitan”, – deyib ortalıqdakı müəmmalı ab-havanı dağıtmaq məqsədilə ən yaxındakı oturacağı qabağına çəkdi, özü isə əvvəlki yerinə qayıtdı.

– Əyləşin, yoldaş kapitan.

Musabəyov ürəyində fikirləşdi: “Elə bil məktəb partası arxasında oturub. Qollarını da birinci sinif şagirdləri kimi masada qoşalaşdırıb, mövzuya necə giriş verəcəyini fikirləşir”.

– Mənim adım… siz məni mayor Hümbətov çağırın. Bu yoldaş isə köhnə əməkdaşlarımızdandı. O, sizi tanıyır, birlikdə layihələrdə iştirak etmisiz.

Boz kostyumlu mayora dəstək verirmiş kimi sözlərini təsdiqlədi:

– Bəli, bəli, biz 15 il əvvəl Beynəlxalq Kosmik Stansiyada birgə olmuşuq.

Boz kostyumlunun nitqi həmin saniyə Musabəyovun yaddaşını təzələdi.

– Bayaq mənə zəng vuran siz idiniz. Səsinizdən tanıdım. Amma Beynəlxalq Kosmik Stansiyada siz deyildiz.

– Bəs kim idi? – mayor Hümbətov xəbər aldı.

– Çox pinti, həftələrlə bədəni su görməyən qəribə bir tip idi. Saçları həmişə yağlı olardı. Təəssüf ki, adını unutmuşam.

– Stansiyada nə işlər görürdüz?

Musabəyov danışdıqca mayor onun üz cizgilərinə, əl hərəkətlərinə göz qoyurdu.

– Yadımdadır, o zamanlar Yerin maqnetik sahəsi üzərində elmi araşdırmalar aparırdım.

– Cənab kapitan, yaxşı pula nə deyərsiz? – Mayor əsas mətləbə keçdi, – Bir təklifimiz var sizə. Marsa missiya hazırlanır, xilasetmə əməliyyatıdır. Ora uçub sıradan çıxmış robotları Yerə

çatdırmaq lazımdı. Bizə kömək etməyə razılıq versəniz yüksək məbləğdə mükafat alacaqsınız.

Musabəyov qolundakı saatın elektron siferblatına baxıb, dərindən köks ötürdü. Rəqəmlər 22:15-i göstərirdi.

– Gecə vaxtı elə buna görə məni evimdən dartıb gətirmisiz?

Əlinə qələm oynadan mayor Hümbətov gülümsəyərək dedi:

– Bəli.

– Robotlara noolub ki, onları Yerə gətirmək elə vacibdir?

– Təfərrüatlara siz razılıq verəndən sonra vararıq. Amma unutmayın, razılıqdan sonra geri çəkilmək olmaz! Həbs olunacaqsız.

Müsabəyov köhnə peşəsindən uzaqlaşsa da gündəmdə olan kosmik xəbərləri izləyirdi.

– Təsadüfən “SpaceX”lə bağlı deyil ki?

Mayor Hümbətov onun sualına təbəssümlə cavab verdi. Musabəyov başını yellədi:

– Yaxşı, mən sizə ancaq bir neçə gündən sonra cavab verə bilərəm.

– Mümkünsə bizə sabah deyin. Vaxt məhduddur.

Musabəyovu gətirdikləri kimi maşınla da evinə ötürdülər. O, içəri keçər-keçməz pencəyini soyunub tir-tap çarpayısına uzandı. Ertəsi gün səhər arvadına bir söz demədən hazırlaşıb işinə getdi.

Musabəyov Elmi Tədqiqatlar İnstitutunda aparıcı mütəxəssislərdən idi. Elektromaqnetizm sahəsində ideyaların tətbiqinə görə ona "Enşteyn Musabəyov" deyirdilər. Kefinin kök vaxtı arvadı da onu Enşteyn müəllim, deyə, çağırırdı.

– Enşteyn müəllim, aşağıda bir nəfər sizi gözləyir, – iş yoldaşlarından forslu-fasonlu bir xanım gülümsəyərək dedi.

Dünənki gecə Musabəyovun yaddaşından silinmişdi, işdəki ab-hava o qatmaqarışıq məsələni tamamilə unutdurmuşdu ona. Amma binadan çıxan kimi, lent elə bil geriyə fırlandı.

– Hə, bu sizsiz?

Boz kostyumlu əlində planşet amiranə şəkildə "qısa söhbətimiz var, gedək" deyib Musabəyovu tələsdirdi. Onlar dünənki "Şevrolet"ə minib, dünənki yerə getdilər…

Gündüz vaxtı Badamdar qəsəbəsi elə də vahiməli görünmürdü. Bir də Musabəyov məsələdən qismən xəbərdar olduğu üçün narahat deyildi. Boz kostyumlu binanın qarşısında dayandı və onlar maşından düşdülər.

Söhbət mayor Hümbətovun otağında davam etdi:

– Nə qərara gəldiniz?

– Əgər missiya dediyiniz kimi, robotları yerə çatdırmaqdan ibarətdirsə mən razı.

– Bir sualım var. Dini görüşləriniz bizə maraqlı gəlir. Allaha inanırsız?

Musabəyov şablon cavab verdi:

– Bir elm adamı kimi mən ilahi qüvvələrə inanmıram və hər şeyin səbəbini yalnız elmdə axtarıram. Amma nə üçün soruşursuz? Sizi başa düşmədim.

– Ona görə soruşdum ki, maraqlıdır. Görəsən, bir müsəlman özünü Yerdən kənarda necə hiss edə bilər? Amma deyirsiz ki, ateistsiniz.

– Bəli.

– Yenə də fikrinizi öyrənmək istərdim. Bir müsəlman Yerdən kənarda özünü necə hiss edər?

– Əgər onunçün qiblə vacib deyilsə, yaxşı, Yerdəki kimi hiss edər.

Mayor Hümbətov əli ilə çənəsini ovuşduraraq fikrə getdi: “bir ateistin verdiyi cavab elə belə olmalıdır”. Sonra isə ciddi-ciddi mətləbə keçdi:

– Siz Qəmli və bığlı ilə birlikdə uçacaqsız.

– Lap yaxşı. Üç nəfərlik heyətlə.

– Qəmli və bığlı siçanın adıdır. Yanınızda bir siçan olacaq.

Kapitan Musabəyovun dodağı qaçdı.

– Bəs o biri siçan harda olacaq?

Gözlənilməz sual mayor Hümbətovun da içəridən qarnını qıdıqladı.

– Yanınızda.

– Cənab mayor, siz mənimlə zarafat edirsiz?

– Yox, bura zarafat yeri deyil. Qəmli və bığlı iki deyil, bir siçanın adıdır.

– Əcəb ad qoymusuz siçana. Niyə məhz siçan, adam bəs eləmir ki? – soruşanda elə dediyi sözə də tutuldu. – Hm... din, ateizm, siçan. Görəsən, o mənə niyə belə suallar verir? – ildırım sürətilə ağlından keçirdi.

Mayor Hümbətov baş barmağı ilə qələmini daha sərt şəkildə çıkkıldatmağa başladı: “çık-çık-çık-çık...”

– Siz mənə vəziyyəti izah edə bilərsiz? Gəmi ilə əlaqə kəsilib? Yoxsa...

– Xeyr əlaqə kəsilməyib.

– Yaxşı. Gəmidə neçə robot var?

Kapitan Musabəyov sözləri elə bil onun ağzından kəlbətinlə çəkib çıxarırdı.

– İki robot və… – deyib tez də fikrini redaktə etdi, – iki robot.

– Hiss etdim robotdan başqa da orda kimsə var.

– Nə yalan deyim, missiyada iki robot və Əfqanıstandan bir astronavt iştirak edirdi.

– Əfqanıstan?!

– Bəli. Ola bilsin Tanrıya inamı güclü olduğu üçün onu bu layihəyə cəlb ediblər. Siz əslində onu xilas etmək üçün burdasız.

– O, sağdır?

– Necə deyim sizə. Həm hə, həm də yox.

Musabəyov hər vəchlə onu tapşırıqla yükləməyə çalışan mayorun düz gözünün içinə baxdı:

– Siz mənə deyə bilərsiz orda nə baş verir?

– Həmin astronavt hiperyuxu altında Marsa göndərilmişdi. Obrazlı dildə desək məsafəni qısaltmaq üçün o, yatıb-durmalı idi. Amma ayılanda səhhətində problemlər yarandı.

– Hansı problemlər?

– Bilirsiz, izah etməyə bir az çətinlik çəkirəm, necə deyim?

– Elə olduğu kimi deyin.

Kapitan Müsabəyov diqqətlə mayorun sözün ardını gətirməsini gözlədi.

– Həmin o əfqan ekranda bir qədər şəffaf görünür.

– Nə mənada şəffaf?

– Şəffaf da, şəffaf.

Musabəyov bir qədər fikrə getdi.

– Siz onun şəffaflığını necə təyin etdiniz? Dalğada interferensiya var, yoxsa siqnal kəsilir?

– Xeyr, siqnal kəsilmir. Yanındakı robotlar ekranda aydın təsvir olunur, amma o adam elə biləsən ruhdur, ona baxanda arxasındakı şeylər görünür. Tez-tez də qışqırır. Hiss olunur ki, əziyyət çəkir.

– Ünsiyyət var?

– Xeyr.

– Bilmək olar, bu məlumatlar sizdə hardandı?

– Nə gizlədim, bizim "SpaceX"lə əlaqələrimiz var. Belə qərar qəbul olunub ki, budəfəki ekspedisiyada biz iştirak edəcəyik. Biz, yəni siz. Biz tərəfimizdən təşəbbüs göstəririk. Onlar öz

raketlərini bizə verməyə hazırdır. Bu, həm də elmimiz üçün vacibdir. Bilirsiz?..

Mayorun nitqində həyəcan hiss olunurdu. Musabəyov onun üzünə baxa-baxa düşüncələrə daldı.

– İndi bu fenomenin izahını vermək çətindir.

– Siz planetdəki vəziyyəti araşdırıb təcili o adamı Yerə çatdırmalısız. Üstünüzdə bütün lazımi avadanlıqlar olacaq.

Gərginlikdən ağzı quruyan Musabəyov qollarını masaya uzadıb baxışlarını boşluğa zillədi: “Robotlar cansızdı, cansızdısa demək insanla bağlıdır... Bəlkə din, yoxsa... yoxsa nə? Sərhəd. Hə, Yerin üst qabığı! Son təbəqə...”

Musabəyov quyunun dibinə endiyini indi başa düşdü.

– Siz mənə öz vəziyyətimi götür-qoy etməyə vaxt verə bilərsiz?

– Əlbəttə, rahat olun.

– Su versəniz pis olmaz.

Mayor Hümbətov üzünü köməkçisinə tutdu:

– El-Yalan, bizə su gətir, – ardınca da əlavə etdi, – qazlı olsun.

– El-Yalan?!

Otaqdakıların üzünə gülüş qondu.

Çox keçmədi El-Yalan əlində bir şüşə su ilə otağa qayıtdı və nəzakətlə onu Musabəyovun qarşısına qoydu.

– Yeri gəlmişkən, sizin dosyenizi oxuyanda heç bir kod adınıza rast gəlmədim. – Mayor Hümbətov davam etdi.

Musabəyov masanın altında şüşənin qapağını astaca açaraq qazını boşaltdı, sonra suyu stəkana süzüb birnəfəsə başına çəkdi.

– Dosyedə qeyd olunmayıb. Siz mənim kod adımı heç yerdə tapa bilmərsiz.

– Sirr deyilsə kod adınız nədir? – mayor Hümbətov maraqlandı.

Musabəyov astadan dedi:

– El-Zefs.

– Çox gözəl, ümid edirik Marsın sirrini aça biləcəksiniz.

Müsabəyov dərindən nəfəs aldı və son sözünü dedi:

– Mayor Hümbətov, mən Marsa getməkdən imtina edirəm.

Mayor üçün cavab gözlənilməz və sərt oldu. O, içindəki qəzəbini boğaraq dedi:

– Təəssüf edirəm, sizi həbsə almaq məcburiyyətindəyik.

– Yaxşısı, məni həbs edin.

Mayor Hümbətov masanın altındakı qırmızı düyməni sıxdı. Bir dəqiqədən sonra içəri iki qoluzorlu girdi.

– Aparın Kapitan Musabəyovu atın zirzəmiyə, – deyib üzünü məhbusa tutdu. – Əlvida, Enşteyn müəllim. İncimәyin, mən də hamı kimi tapşırıqları icra edirəm.

Kapitan Musabəyovu apardılar, mayor Hümbətov isə asta bir tərpənişlə pəncərəyə yaxınlaşıb üfüqdə közərən günəşin son şəfəqlərinə tamaşa etməyə başladı. Dəniz heç zaman olmadığı kimi qızılı rəngə boyanmışdı. Gözünün qabağında yanmış kürənin ölümünə şahidlik edən mayor fikirli-fikirli üzünü çevirib yerinə qayıtdı. Şüşədə yarımçıq qalmış suya baxa-baxa əli ilə masanın altındakı qırmızı düyməni sıxdı. Çox keçmədi köməkçisi içəri daxil oldu.

– El-Yalan, buraxın onu…

**Müəllif: Məmməd Məmmədli**

**Daha çox məlumat burada**

**Oxuyun** >> **Gözündə tük var**

**Zaur Ustacın şeirləri haqqında**

**Mustafa Müseyiboğlu adına kitabxana**




**Sonuncu qapı**
(*hekayə*)
Şəhərə ilk dəfə girəndə diqqətimi qəribə bir şey çəkdi: burada heç bir evin qapısı yox idi. Divarlar vardı, pəncərələr vardı, hətta eyvanlarda güllər də açmışdı. Amma qapılar yox idi.
İnsanlar isə bunu adi qarşılayırdı.
Bir qadından soruşdum:
— Bəs evinizə necə girirsiniz?
Qadın təəccüblə üzümə baxdı.
— Biz heç vaxt çölə çıxmamışıq ki, içəri də girək.
Dediklərini başa düşmədim.
Şəhərdə gəzdikcə hiss etdim ki, burada heç kim heç kimə toxunmur. Hamı bir-birinin yanından keçir, amma sanki bir-birini görmür. Gülüşlər vardı, amma səs eşidilmirdi. Göz yaşları vardı, amma yerə düşmürdü. Külək isə bütün küçələri dolaşaraq insanların kölgələrini bir-birinə qarışdırırdı.

Mən çıxış yolu axtarmağa başladım.
Bir gün şəhərin mərkəzində paslı bir açar tapdım. Hamı qorxu ilə məndən uzaqlaşdı.
— Onu yerə qoy! — deyə qoca bir kişi qışqırdı. — Bu şəhərdə açar olmaz.
— Niyə?
— Çünki açar olan yerdə qapı da olar. Qapı isə insanı seçim etməyə məcbur edər.
Mən açarı ovucumda sıxdım.
Elə həmin an şəhərin divarlarında nazik çatlar əmələ gəldi.
Kimsə ilk dəfə yüksək səslə güldü. Başqa biri illər sonra ağladı.
Külək istiqamətini dəyişdi.
Sonra uzaqda, heç vaxt olmayan bir qapı görünməyə başladı.
Mən ona doğru addımladım.
Qapını açanda qarşıma nə başqa bir şəhər çıxdı, nə də yeni bir dünya.
Qarşımda yalnız güzgü vardı.
Güzgüdə isə uzun illərdir tanımadığım adam dayanmışdı.
O, sakitcə gülümsədi.
Mən ilk dəfə baxışlarımı ondan qaçırmadım.

**Müəllif: Dəniz Aslanlı**

**Dəniz Aslanlının digər yazıları**

**QƏNDAB XANIMIN YAZILARI**

**DAHA ÇOX YENİ MƏLUMAT**

**Mustafa Müseyiboğlu adına kitabxana**




**APARIR**

Baxıram ki, ömür gedir, canımızı an aparır,
Mən kiməm, nəkarəyəm, geri dönüm, can aparır.

Dözəmmirik çətinliyə, qana düşüb yalvarırıq,
Əl açırıq Yaradana, qoyma bizi qan aparır.

Saat-saat qocalırıq, aşıb daşan ruhumuzu,
Üzümüzə xeyrə gələn, hər açılan dan aparır.

Zaman köhnə bir qatildi, aldığını geri vermir,
Qınamayın yaşlı nəsli, əqlini zaman aparır.

Arı yazıq neyləsin ki, ömrü elə uzun deyil,
Allah verən o qisməti çalışdığı şan aparır.

Yaxşı sözün, nəsihətin xiridarı artıq olmaz,
Unutmayın bu söhbəti Murad adlı xan aparır.

**GƏRAYLI**

Nə verdinsə, borca verdin,
Zalım dünya, danmadım ki!
Biləmmədim nədi dərdin?
Ömür getdi, qanmadım ki!

Korluğunu, karlığını,
Xoş günümdə darlığını,
Bircə gün də varlığını
Müvəqqəti sanmadım ki!

Bu gün varam, sabah yoxam,
Bir qoydun ki, gendən baxam.
Uşaqlıqdan gözü toxam,
Səndən nəsə ummadım ki?!

Hey çalışdın qandırasan,
Nə verdinsə andırasan.
Çox aldatdın yandırasan,
Mən odunda yanmadım ki?!

Demə, niyə rəngin solub?
Murad bilir, yaşa dolub.
Töhmətindən cızdağ olub,
Sərt qışında donmadım ki?!

**SABAH – MÜƏMMA**

Artıq yorulmuşam, lövbər salıram,
Bezirəm həyatın keşməkeşindən.
Gün keçir, ay keçir, geri qalıram,
Dünən üç-dördündən, bu gün beşindən.

Dili yox danışa, soruşam, soram,
Bu canın mənimlə öhdəliyi yox.
Bilmirəm doğrusu nə qədər varam,
Mən də köçməyəcəm gözü könlü tox.

Səbrim dara çəkib, kömək etməyib,
Öhdəmə düşəni eləməmişəm.
İstəyim nəfsimlə yola getməyib,
Mən çox şey ummuşam, diləməmişəm.

Bütün günahların səbəbi özüm,
Boynuma alıram, niyə gizlədim ?
Məni incidəni görmədi gözüm,
Qaranlıq tuneldə işıq gözlədim.

Sonu bilinməyən yoldu gedirik,
Bu günə ümid var, sabah müəmma.

Hər şeydən mənfəət, qazanc güdürük,
Sabah nə olacaq bilmirik amma.

**ÖLDÜRÜR**

Dözümsüzəm səsə-küyə,
Daş səbrimi səs öldürür.
Ruhum öləziyib deyə,
Məni zil yox, pəs öldürür.

Arzu, istək hələ çoxdu,
Ayrılmağa həvəs yoxdu.
Vallah-billah gözüm toxdu,
Çoxumuzu nəfs öldürür.

Hər an düşün sabahını,
Alma kasıbın ahını.
Malalama günahını,
Demə filankəs öldürür.

İnsan kordu, doymur gözü,
Nə nəfs durur, nə də özü.
Murad, budur sözün düzü,
Canı bəhsə-bəhs öldürür.

***Müəllif:*** ***Murad MƏMMƏDOV***

**MURAD MƏMMƏDOVUN YAZILARI**

**Mustafa Müseyiboğlu adına kitabxana**



**ANA ÖMRÜ**

“Bu həyat mənimdir” – deyirdim əvvəl,
Amma görürəm ki, ömrün yarısın
Yaşadım həyatı övladlarımçün.
Bilmirəm, nə qaldı ömür yolumdan,
Razıyam, yaşayım mən onlar üçün.

“Bu həyat bizimdir” – deyirəm indi,
Onların gülüşü bəsimdir mənim.
Özümü onlarda tapdığım gündən,
Hər sevinc, hər uğur fəxrimdir mənim.

Nə qaldı ömürdən, bilmirəm, amma
Onların yolunda şam tək yanaram.
Mən öz həyatımı onlarda görüb,
Dünyanın xoşbəxti tək oyanaram.

**BİZİM QONŞULAR**

Zamanın çarxını elə quraq ki,
Ağ saçım qaralsın, qırışım itsin.
Uşaqlıq illəri yenə qayıtsın,
Həyətdə uşaqlar oyun bitirsin.

Atamız yenə də işindən gəlsin,
Anamız bizlərə yemək bişirsin.
Köhnə məhəlləmiz yenə canlansın,
Dizimiz qanasın, ürəyimiz yox...

Voleybol toruyla bölünsün meydan,
Tennis masasında qızışsın oyun.
Hər kəs bir-birinə eləsin hörmət,
Süfrədə bir olsun bolluca nemət.

Novruzun şip-şirin sovqatı gəlsin,
Papaqlar yığılsın masa üstünə.
Samovar qaynasın,tonqal qalansın,
Hamının evinə sevinc yayılsın.

İndi paylanmışıq biz hər tərəfə,
Şəhərin içində itmişik bir az.
Dönmək istəyirik eyni hədəfə,
O köhnə qonşuluq bizə bəs edər...

Gəlin görüşək ki, zaman dayansın,
Mehriban qonşular yenə yığışsın.
Yenidən uşaqlıq ruhu oyansın,
Qonşuluq ölməsin,heç vaxt itməsin.

## HƏYATIN SƏDASI

Həyat bir dənizdir, durmadan axır,
Bəzən alovlanıb şimşək tək çaxır.
İnsan qocaldıqca illəri alır,
Görür ki, bir ömur xatirə qalır.
Əvvəl uşaq olur, sonra qocalır,
Həyatın içində xəyala dalır.
Sanki bir yuxudan yaddaşda qalır,
Zaman saatını kim saxlar görən?

Varlık bir nöqtədir, zaman bir xəyal,
Hər keçən saniyə cavabsız qalır.
Cismin bu axında gəzib dolaşır,
Bəlkə sonsuzluqda cavabın tapır.

Demək istəyirəm qəlbdən keçəni,
Gəl sağkən isidək soyuq ürəyi,
Gözəl yaşamaqdır bəxtin töhfəsi.
Gecikmiş hörmətin faydası yoxdur,
Sağ ikən duyulsun sevginin səsi.

## XOŞBƏXTLİK MASKASI

Bir qadın tanıyıram.
Tanımaq istəyərsən?
Hamıyla şən danışıb,
Gözünün hər damlasın
Gizlədib danışanın
Həyat hekayəsinə qulaq asa bilərsən?
“Xoşbəxtlik” maskasını taxib qəmli üzünə,
Gülüşləri sədd çəkib qəlbini göy üzünə.
Kimsə bilmədi evdə sükut necə bağırır,
Allaha sığınaraq, necə onu çağırır .
Oğul payı yox deyə, qınadılar hər sabah,

Sanki "qız anasıdır" – ən böyük ağır günah.
Atası kasıb deyə, əzdilər qürurunu,
Zülmün içində boğub, söndürdülər nurunu.
Həyat yoldaşı yoxdu, yolları "duman" idi,
Amma evdəki duman daha çox aman idi.
Qızının tellərinə ağ duvaq istədilər,
Məktəbliykən ömründən qoy kəsilsin dedilər.
Bax, o gün fırtınanın mərkəzində durdu o,
Zülmün qala divarın təkbaşına vurdu o.
Onun əllərindəydi iki qızın taleyi,
Böyük ümidlərlə o, tərk etdi zülm evini.
İndi böhtanlar yağır, "ana" tək qaldı deyə,
Vicdanın qapısını döymür heç kim, nə deyə?
O isə susur yenə, susqunluğu dağ boyda,
Qızları çiçək açıb bu yad, başqa "sarayda".
O qadın bir dənizdir, sahili sükut olan,
Dalğası fəryad dolu, dərini sükut olan…

**Müəllif:** **D.Mirzə**

**D.MİRZƏNİN DİGƏR YAZILARI**

**Dəniz Aslanlının digər yazıları**

**QƏNDAB XANIMIN YAZILARI**

**DAHA ÇOX YENİ MƏLUMAT**

**Mustafa Müseyiboğlu adına kitabxana**



## ZEYNƏB CƏMALƏDDİNİN YAZILARI



**AĞILLI GÖZƏL**
(*rəvayət*)
***Anamın uca xatirəsinə ithaf edirəm***
Bağçalar arası cığır boyunca,
Bir gözəl gedirdi, boyu sərv, uca.

Çatılmış qaşları qoşa qanaddı,
Upuzun kipriyi gözə inaddı.

Düzülüb çəpərtək ala göz üstə,
Gözləri göröni edərdi xəstə.

Yanağı qar üstə qızılgül alı,
Mərcan dodaqları sanki dağ balı.

Sərvə bənzəyirdi incə qaməti,
Tanrı xoş çağında verib neməti.

Çiyninə sürüşən bəyaz örpəyi,
Ovuca yerləşən Basqal ipəyi.

Hər iki tərəfi yolun bağ-bağat,
Yaşıllıq qəlbinə verir xoş ovqat.

Həyatın səsiydi quşların səsi,
Üzünü oxşayır bahar nəfəsi.

Gözəl qız gedirdi qəlbi fərəhli,
Görənsə sanardı deyil Yer əhli.

Cığıra qaraltı uzandı birdən,
Yol üstə bir insan çıxdı qəfildən.

Gözləri qamaşan cavan bir kişi,
Ürək ovlamaqdı onun vərdişi.

Bir yeni macara dadı alınca,
Düşdü o bu gözəl qızın dalınca.

Sevgidən danışdı, qəzəl söylədi,
"Heç aşıq olmadım əzəl" söylədi.

Qız susub gedirdi, cavab vermədən,
Qırsaqqız adamsa dinir durmadan.

Gözəli təriflə ram etmək çətin,
Soruşdu: "Bu işdə nədir məqsədin?"

Gənc kişi söylədi:”aşiqəm sənə,
Görəntək vuruldum gözəl çöhrənə”.

Qız dedi: “Gəl məni dinlə sən bir az,
Mənim bacım kimi gözəl tapılmaz.

İşi yox inadla, ya qeylü-qalla,
Bir qədər arxada gəlir bu yolla”.

Kişi çox sevincək geriyə qaçdı,
Güldü qız: “yalan da yaxşı əlacdı.

Başından etməyə nəfsi acları,
Üzündə olmayan ar-utancları”.

Gənc adam gördü ki, yolda kimsə yox,
Özündən çıxaraq qəzəbləndi çox.

Qaçaraq yetişdi o, gözəl qıza,
Gözləri bənzəyən bir cüt ulduza:

“De, hansı cürətlə söylədin yalan,
Qəlbimi ovlayıb əlimdən alan?”

Gözəl qız sözünü dedi gülərək,
Söylədi, ey insan, gəl məndən əl çək.

Yolundan etmədim nahaq kimsəni,
Ey qafil, yoxlamaq istədim səni.

Sən məni sevsəydin ürəkdən, əgər
Eşqini şübhəyə edərdin sipər.

Görməzdi başqa bir sərvinaz gözün,
Qəlbimlə oynamaq istədin özün.

Eşqin, sədaqətin adı çox uca,
İndisə boş yerə gəlmə dalımca.

Kişinin qızardı gözünün ağı,
Dinmədən başını saldı aşağı.

Utandı, peşiman öz əməlindən,
"Bağışla" sözləri çıxdı dilindən.

Səhvini anlamaq, o da bir işdi,
Gözəldən ayrılıb yolun dəyişdi
*04.05.2026*

**XƏYALLAR**
Yenə ayaqlarım götürdü məni,
Üstü bənövşəli köhnə dəftərə.
Özümü aldadıb guya örtmüşəm
Keçmişə qapını mən nahaq yerə.

Bir duman içində açılır qapı,
Vərəqlər astaca xışıldadıqca.
Qapının dalından baxır qıyqacı,
Xəyallar çağırır məni açıqca.

Bu gizli aləmi ziyarət edib,
Bəlkə də unutmaq istəmirəm mən?
Çəhrayı buludlar – çəhrayı yelkən,
Çəhrayı yağışda islanan mənəm…

Dəftər arasında saralmış vərəq,
Qat kəsib dəftərin orta yerində.
Bir həzin sədaya dönür kəlmələr,
Bir ağrı sızlayır incə, dərində.

“Mən səni görəntək inandım, gülüm,
Ömrümə yazıldın, ömrüm, inan ki”
Quruyub bozarmış bir zərif çiçək,
Sözlərin altında möhürdü sanki.

Zaman bulaq təki arınıb axır,
Sovrulur, verdiyin bir də alırmış.
Ürəkdə qoyulmuş məsafələrdə
Ayrılıq keçilməz çəpər olurmuş.

… Qopub xəyalların cazibəsindən
Örtürəm dəftəri əllərimdə nəm.
Titrəyib astaca görünməz olur,
Bənövşə qoxulu, nağıllı aləm.
*19.03.2026*

**OLURMUŞ**
Quşun dimdiyində yem olacaq dən,
Torpağa düşəndə taxıl olurmuş.
Xislətə nə etsin qüsursuz bədən,
Yalançı adamlar paxıl olurmuş.

Məchulu açmağa açardır heyrət,
Zirvəyə ucaldar ağıllı cürət.
Təsəlli edəndə fərsizi qeybət,
Sözləri ballanıb noğul olurmuş.

Ələnər ömürdən vaxt narın-narın,
Ürəkdir xəznəsi misilsiz varın.
Əgər mərd adamsa həmdəmin, yarın,
Sınaqlar, savaşlar nağıl olurmuş.
*28.04.2026*

**SONET**
(*təkqafiyəli*)
Vurar can evindən xəyanət, yalan,
İnsanın ruhunu eyləyər talan.
Xain öz içində gizləyər ilan,
Görərsən, fəsadmış üzü dost olan.

Maneə sayılmaz yolda hər dalan,
Daşda da gül açar, əzmlər, inan.
İnsanı yanıldar bəlkə zər-palan,
Ağılla ucalan olmaz alçalan.

Nə yersiz lovğalan, nə də xırdalan,
Su tökmə, – kor quyu deyildir dolan.
Zamanı əridib olma sarsılan.

Bilinməz realdır, ya nağıl-filan,
Ömürlər əmanət, gözəllik solan,
Fəqət iz saxlayıb əməldir qalan.
*21.04.2026*

**ADAMLAR**
Biri beşə qatlayır,
Fitnə-fücur adamlar.
Həyatına adlayır,
Elə bu cür adamlar.

Yüz hiyləylə, kələklə,
Əsdirdiyi küləklə,
Oğurlanan lələklə,
Göylə uçur, adamlar.

Düzlük şərt deyil, demək,
Bəzən boş gedir əmək.
Ucuz olub nan-nəmək,
Yeyib-içir adamlar.

Geydiyi köynək sıxır,
Gah asiman, gah çuxur.
Ucalmağa vurnuxur,
Yerə köçür adamlar.
*09.05.2026*

**YAZARAQ DANIŞIRAM**

Yalançı ümidlərin taxtını devirmişəm,
Səssizliyin mənə xas aləminə girmişəm,
Qırıldıqca üzümü özümə çevirmişəm,
Susaraq danışıram.

Xəzrilərə çevrilib daha bahar nəsimi,
Hər üzünü görmüşəm mənə “əziz” kəsimin.
Qayalara toxunub duyulmayan səsimi,
Qısaraq danışıram.

Eh... Məni sevməyənlər, yığışın bir araya,
Kam almaqdı qəsdiniz, di düzülün sıraya,
Əlimi qəlbimdəki o görünməz yaraya
Basaraq danışıram.

İstəmirəm bıçaqtək iti kəsən söz dəyə,
Bağlamışam qəlbimi, görünməsin özgəyə.
Sükutu gözlərimdən pərdəlik olsun deyə
Asaraq danışıram.

Dəyişilir tərkibim[1], qəm çoxalır gilimdə,
Əriyirəm, bişirəm hələ yanan külümdə.
Ürəkdə çağlayan söz düyün düşür dilimdə,
Yazaraq danışıram.
*24.04.2026*

*[1] İnsan torpaqdan, gildən yaranıb. Orqanizmdə (tərkibdə) maddə və mineralların balansının dəyişməsindən əhval dəyişir.*

**GÖZ İLƏ QAŞ ARASINDA**
Yaşayır, çalışır vuruşur insan,
Çırpınır yaz ilə qış arasında.
Arzuya yetişmək deyildir asan,
Əlenir ürəklə baş arasında.

Yolları yoxuşdu, daşlı-kəsəkli,
Gedirsən, gözündə bir zirvə şəkli.
Gah toran görünür, gah da bəzəkli,
Qalmısan kəsəklə daş arasında.

Yolunda nə ləldi, parlayır yaman,
Almasan peşiman, alsan peşiman.
Getməyə ürəyin verməsə aman,
Dönərsən heyiflə kaş arasında.

Zeynəba, sanırsan, dağlar aşırsan.
Ay canım, özünlə bil yarışırsan.

Əcəldən qaçaraq yaxınlaşırsan,
Əcəl də göz ilə qaş arasında.
*11.02.2026*

**BAŞ ADIM**
Bu həyatın dərslərinin xeyri yox,
Çünki ürək sındırmağa naşıdım[1]
Məni saran sevgilərin çatı çox,
Mənmi görən yara açıb qaşıdım?

Gah kəpənək qanadıyam, gah kənək[2],
Arzularım yağış döyən biçənək.
Ümidlərim budaqlanan bir tənək,
İkisinin arasında yaşadım.

Görmədilər aydan arı qəsdimi,
Günü-gündən qopuz ürək susdumu?
Dodaqları hilal olan dostumun
Gözlərində ikilikdən üşüdüm.

Öz dilimi yaraladı sözüm də,
Yolum yoxuş, gücə düşdü dizim də.
Dumanları zirvə kimi gözümdə,
Buludumu ürəyimdə daşıdım.

Güvənimdən düşdüyüm yer qəm dərə,
Parçalandı ürək bəlkə min yerə.
“Zeynəb” yazıb qol da çəkdim dəftərə –
“Küllərindən doğulan”dı baş adım.
*02.04.2026*

[1] *naşı idim (şivə)*
[2] *kənək – bərk qabıqlı qoz*
[3] *hilal – təzə çıxan ay, oraq formasında*

**DƏRYADAN DAMLALAR**

*(Xəyalımla deyişmə - divani)*

-Haqq-salamı unutmayıb, salam desəm, yeridir,
Konül mülküm cəng yeridir, sınaq-savaş yeridir.
Mərifətdən kəm olana qoşulmağın xeyri yox,
Kor buraxmaz tutduğunu, öz sözünü yeridir.

-İncə məqam, nazık mətləb çatdıran sim sarıdır,
Həsrət qəlbə vursa yara, yar yarına sarıdır1.
Qərinələr gəlib keçır, bu dərdin çarəsi yox,
Vətənindən ayrı düşən göz – Vətənə sarıdır.

-Dörd tərəfdə möcüzələr, görən görür, dan görüm,
Dünya fanı, amma şırın, gəl ona aldan görüm.
Bir qaşıq min dərdə dəva, danış o baldan görüm,
O kimdir ki, əl-əlimdır, əl-Həyydir, əl Zaridir2?

-Şübhəsizdir, xırda dənin vardır böyük hikməti,
Min-min arı bir sistemdə çəkir türlü zəhməti.
Yerə bu ecaz varlıqda endiribdi rəhməti,
O Allahdır, oyanıqdır, olümsüzdür, diridir.

-O kimdi ki, yarananda Rəbbi idi həmdəmı?
Kim onu haqdan azdırdı, çoxaldı dərdi-qəmi?
Bilməz gedir doğru yola, yoxsa yanlış səmtəmi?
Amma yenə səcdə edən, tövbə edən biridir.

-Məqamını uca etdi yaradanda Adəmi,
Həvva üçün buğda dərib, dərk etdi kədər-qəmi.
Bir əli xeyrul-əməldə, biri körüklər dəmi,
Günahını utanmadan cin-şeytana sırıdır3.

-Habillə Qabildən qalıb çəkişmələr, qovğalar,
Ortalığa hər fəsadı həsəd, tamah qor salar.
Əsədullahul-Qalibin4 adı düşmən qarsalar,
Sevən ürəklərdə yaşar yüz illərdən bəridir.

-Cəng meydanın çulğalayan coşqun bir dağ seliydi,
Kafirin başı üstündə əsən səmum yeliydi.
Əbu Talıbdir atası, özü Həzrət Əliydi,
Atı Düldül, Zülfüqarlı, o, Allahın şırıdir.

-Bu dəyərlərlə gəlmışik, adlayıb, yüz illəri,
Dünya durmadan dolanır, dəyişdirir hədləri,
Uzanmışdı torpagıma, kəsdik namərd əlləri,
İlham ilə yumruq olan ərlərin hünəridir.

-Sual versən, dövrümüzdə ərlər, ərənlər hanı,
Nə sanırsan, bu zamanda yoxmu igidlik kanı.
Qanla suvardı torpağı, rədd elədi düşmanı
Həm şəhiddir, həm qazidir, həm Koroğlu nəridir.

-O kimdi ki, Tanrısına sanki, düşübdür ası
O kimdi ki, gələcəyə böyükdür iddiası,
Ver cavabı, sualımın hələ vardır dahası,
Dünənki ağ qu quşunun bu gün rəngi qaradır.

-Uçan, qaçan hər nə varsa, dəyişdirir baxtını,
Bioloji mühəndislık boş keçirtmir vaxtını.
Gündən günə bu aləmdə ucaldaraq taxtını,
Gizli-aşkar yeni növlər, yeni fərdlər yaradır.

-O kimdi ki, vaqif olub, yey tanır səndən səni,
Gizli deyil istəklərin, anlayır gendən səni.

Gah həkimdi, gah müəllim, alır əlindən səni,
Gah mürəbbi, gah lələdi, hər nə cindi, pəridi.

-O izləyir hər varlığı, hər gülü, hər yarpağı,
Həm gecəni, həm gündüzü, həm səhər, axşam çağı.
Ürəyində gizlədiyin oxunmayan varağı,
“Big Data”dır, hər tərəfdə gözləri var, “iri”dir.

-Mən Zeynəbəm, qanadlanan ruhuma pərvaz gəlir,
Hər sözü qoydum mizana, çəkmişəm, taraz gəlir,
Dəryadakı bu damlalar indi mənə az gəlir,
Kəlmə olub, şəkillənən gözlərimin fəridir.

-Bəzən həzin bir nəğməyəm, bəzən dilsiz bir daşam,
Dönəcəyəm bu torpağa, torpaqdan yoğrulmuşam.
Ömrün xəzan fəslindəyəm, gah payızam, gah qışam,
Zeynəb, çoxdan enişdəsən, demə ömür yarıdır.

*16.08.2023*
*1 – yarasını yarına sarıdır. (sarıtdırır)*
*2 – Əl-Əlim – hər şeyi bilən, çox elmli , Əl-Həyy – diri, Əz-Zari – yaradan (yaxud bəndələrinin aqibətini müəyyən edən)*
*3 – Günahını şeytana sırıyır, şeytanı günahlanırır*
*4 – Əsədullahul-Qalib – Həzrəti Əlinin ləqəbi*

**AŞIQƏ MƏLHƏMİ CAN**

Aşiqə məlhəmi-can, şəhdi-şəkər, can yaxışın,
Qiyməti təxti- Süleymana dəyən yan baxışın.

Bənzəri var biləsən, atəşə göz qarəsinin,
Atəşin yaxmağıdır hər belə kiprik çaxışın.

Sən xuda, baxma yada, şaxta-boran, qar gətirir,
Qəlbimin pəncərəsində çəkilir buz naxışın.

Qarə, zil gözlərinin asimanında gecədir,
Gül ki sən, hər gülüşün çeşmimə ulduz taxışın.

Eyy üzündə açılan gül, saçılan ləli-yəmən,
Şəfqətindən yayılır hər tərəfə zər yağışın.

Ta ki möhnət yükünü çəkməyimin məzuru yox,
Qəlbimi yarə edir, sadəcə minnət qaxışın.

Anlamaq olmadı ki, sirrini, ey surəti nur,
Zeynəbi çoxmu çəkər cazibənə sirr axışın…

**GƏLSİN**

Möhlət daralır, mənzilə yollar kəsə gəlsin,
Allah da bilir, canda nələr var, nəsə gəlsin.

Bir çoxları atsın zəri, zər şeş qoşa versin,
Şükr eyləyərik biz, bizə bir pəncu-sə gəlsin.

Udsun səhərin rayihəsin bülbülü şeyda,
Bülbül səsinə aşiqi-canlar səsə gəlsin.

Aşiqsə əgər, qarğaşaya əhli-cəhalət,
Qarğa bazarından yığılıb səs-səsə gəlsin.

Cidanı alar, gizləyər iblistəkin insan,
Gizlətmək üçün ta ələ cüt-cüt kisə gəlsin.

Hər qum dənəsin dürrəyə döndərmir İlahi,
İlbizləri yar ki, içi dürr, ölməsə gəlsin.

Daş-daş hörərək gər gen edərsən qələgahın[1],
Mümkün ki, şəyatin babadan vəsvəsə gəlsin.

Göydən ki, səda gəldi, a Zeynəb, səni səslər,
Keçmişsə məhək yoxlamasın, dürrəsə, gəlsin.

1 *gələgah – burada: həbsxana mənasında*

**Müəllif:** **Zeynəb Cəmaləddin**

**ZEYNƏB CƏMALƏDDİNİN YAZILARI**

**MURAD MƏMMƏDOVUN YAZILARI**

**GÜNNUR AĞAYEVANIN YAZILARI**

**HƏCƏR ATAKİŞİYEVANIN YAZILARI**

**“ARİSTOTEL POETİKASI” RUBRİKASI**

**I>>>>>>BU HEKAYƏNİ MÜTLƏQ OXU<<<<<<I**

**Mustafa Müseyiboğlu adına kitabxana**



**İstedadın faciəsi və taleyin sınağı**

Qırğızıstan Dövlət Baken Kıdıkeyeva adına Gənc Tamaşaçılar Teatrı özünün 36-cı teatr mövsümünü “İstedad və Tale” tamaşası ilə başa vurdu. İyirmi iki ildir teatrın repertuarından düşməyən bu səhnə əsəri bu gün də tamaşaçıların böyük marağına səbəb olur, bədii-estetik dəyərini və ictimai əhəmiyyətini qoruyub saxlayır. Bu fakt tamaşanın zamanın sınağından uğurla keçmiş sənət nümunəsi olduğunu bir daha təsdiqləyir.

2004-cü ildə Qırğızıstan Respublikasının xalq yazıçısı, dramaturq Canış Kulmambetov tərəfindən qələmə alınmış və rejissor Almaz Sarlıkbekov tərəfindən səhnələşdirilmiş bu tamaşa qırğız teatr sənətinin görkəmli nümayəndəsi, səhnənin kraliçası Baken Kıdıkeyevanın həyat və yaradıcılıq taleyinə həsr olunmuşdur.

Əsər təkcə görkəmli sənətkarın bioqrafiyasını nəql etmir, həm də onun daxili faciəsini, yaradıcılıq əzablarını, insani kədərini və cəmiyyətlə mürəkkəb münasibətlərini dərin bədii ümumiləşdirmə ilə təqdim edir. Tamaşanın dramaturji əsasını istedad və tale, yaradıcı şəxsiyyət və cəmiyyət, mənəvi ucalıq və paxıllıq arasındakı ziddiyyət təşkil edir.

Baken Kıdıkeyevanın şəxsi taleyi vasitəsilə yaradıcı insanların cəmiyyətdəki mövqeyi, onların layiqincə qiymətləndirilməsi və ya qiymətləndirilməməsi kimi mühüm məsələlər ön plana çıxarılır. Müəllif bu mövzunu bir insanın faciəsindən ümumbəşəri və fəlsəfi səviyyəyə yüksəldərək hər dövr üçün səciyyəvi olan mənəvi problemləri ustalıqla açıb göstərmişdir.

Tamaşanın rejissor həllində xatirələr, daxili monoloqlar, simvolik səhnələr və psixoloji keçidlər uğurla istifadə olunmuşdur. Səhnə hadisələri tamaşaçını keçmişlə bu günün, həyatla ölümün, həqiqətlə xatirənin qovuşduğu özünəməxsus bədii məkana aparır. Bu üsul qəhrəmanın daxili aləmini daha dərindən açmağa və tamaşanın fəlsəfi məzmununu gücləndirməyə xidmət edir.

Ən kəskin münaqişələrdən biri istedadın paxıllığa və bürokratik laqeydliyə qarşı mübarizəsidir. Baken Kıdıkeyevanın əsassız tənqid olunması, teatrdan uzaqlaşdırılması və yaradıcılıq mühitindəki intriqaların qurbanına çevrilməsi təkcə bir insanın

deyil, bütöv cəmiyyətin mənəvi xəstəliyinin rəmzi kimi təqdim edilir. Beləliklə, tamaşa yalnız tarixi hadisələri xatırlatmır, həm də müasir dövrün problemləri haqqında düşünməyə sövq edir.

Tamaşanın uğurunda aktyor ansamblının rolu xüsusilə böyükdür. Qırğızıstan Respublikasının Xalq artisti Nazira Mambetovanın yaratdığı Baken Kıdıkeyeva obrazı tamaşanın əsas bədii nailiyyətlərindən biridir. İyirmi iki il ərzində bu rolu ifa edən aktrisa qəhrəmanın daxili aləmini, hiss və həyəcanlarını tamaşaçıya yüksək peşəkarlıqla çatdıra bilmişdir. Onun səhnə plastikasındakı ustalığı, nitq mədəniyyəti və psixoloji vəziyyəti ifadə etmək bacarığı obrazın canlı və inandırıcı alınmasını təmin edir. Tamaşaçı səhnədə aktrisanı deyil, sanki Baken Kıdıkeyevanın özünü görür.

Nuray Askarbek qızının canlandırdığı Darkül Küyükova obrazı da tamaşanın emosional təsirini artıran mühüm aktyor işlərindən biridir. Aktrisa insanpərvərlik, dostluq və yaradıcı insanlar arasındakı qarşılıqlı hörmət hisslərini inandırıcı şəkildə təqdim edə bilmişdir. Digər aktyorlar da ansambl prinsipini qoruyaraq tamaşanın bədii bütövlüyünü təmin etmişlər.

Baken Kıdıkeyevanın taleyi vasitəsilə əsər hər birimizin qarşısında mühüm bir sual qoyur:

“Biz istedad sahiblərini sağlığında qiymətləndirə bilirikmi, yoxsa onların böyüklüyünü yalnız itirdikdən sonra anlayırıq?”

Məhz bu sual tamaşanın ideya mərkəzini təşkil edir və onun bədii gücünü, ictimai əhəmiyyətini müəyyənləşdirir.

Müəllif və yaradıcı heyət haqqında

Canış Osmanoviç Kulmambetov (1955) — Qırğızıstan Respublikasının xalq yazıçısı, dramaturq, nasir, teatr və kino rejissoru, teatrşünas, teatr tənqidçisi, publisist və tərcüməçidir. O, qırğız ədəbiyyatı və teatr sənətinin görkəmli nümayəndələrindən biridir. "İstedad və Tale" dramının müəllifidir.

Almaz Sarlıkbekov (1950–2008) — qırğız teatr sənətinin görkəmli nümayəndəsi, pedaqoq-rejissor, Qırğızıstan Respublikasının Xalq artisti. "İstedad və Tale" tamaşasının quruluşçu rejissorudur.

Nazira Mambetova (1948) — Qırğızıstan Respublikasının Xalq artisti, Toktoqul adına Dövlət Mükafatı laureatı, qırğız teatr və kino sənətinin görkəmli nümayəndəsi. "İstedad və Tale" tamaşasında rejissor assistenti kimi çalışmış və Baken Kıdıkeyeva obrazını yaratmışdır.
Nuray Askarbek qızı (1977) — Mədəniyyətin Əməkdar işçisi, K. Jankorozova mükafatı laureatı, Baken Kıdıkeyeva mükafatı laureatı, Qazaxıstan Respublikasının Azərbaycan Mambetov adına mükafatı laureatı, Mədəniyyət Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunmuşdur. Baken Kıdıkeyeva adına Qırğızıstan Dövlət Gənc Tamaşaçılar Teatrının aktrisasıdır. "İstedad və Tale" tamaşasında Darkül Küyükova obrazını canlandırmışdır.

**Məqaləni hazırlayan:**

**Kunduzbü Mamatova** — *dramaturq, teatrşünas, şair. Qırğızıstan Milli Yazıçılar Birliyinin üzvü*
**Kunduzbü Mamatovanın yazıları**



**Zaur Ustac yaradıcılığında tarixin izləri**
*("Övladıyam" şeiri əsasında tarixə qısa ekskurs)*

Azərbaycan poeziyasında milli yaddaşın, tarixi şüurun və vətənçilik düşüncəsinin bədii ifadəsi hər zaman xüsusi yer tutmuşdur. Bu ənənə klassik ədəbiyyatdan başlayaraq müasir dövrə qədər müxtəlif sənətkarların yaradıcılığında davam etmiş, hər dövr öz tarixi hadisələrini, qəhrəmanlarını və mənəvi dəyərlərini poeziyanın dili ilə gələcək nəsillərə çatdırmışdır. Müasir Azərbaycan poeziyasında bu xətti uğurla davam etdirən qələm sahiblərindən biri də tanınmış hərbçi-şair Zaur Ustacdır.

Onun 13 noyabr 2020-ci ildə – Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Zəfərdən dərhal sonra qələmə aldığı "Övladıyam" şeiri yalnız poetik nümunə deyil, həm də milli

kimliyin, tarixi yaddaşın və dövlətçilik ideyasının bədii manifestidir. Şeir Azərbaycan tarixinin müxtəlif dövrlərini, qəhrəmanlarını, mənəvi dəyərlərini və milli ideallarını vahid poetik sistemdə birləşdirərək oxucunu minilliklər boyunca davam edən milli mübarizə yoluna aparır.

Şeir ilk misralardan etibarən müəllifin kimliyini fərdi yox, milli məzmunda təqdim edir:

***Müzəffər ordunun şanlı əsgəri,***
***Ərənlər yurdunun ər övladıyam!***

Bu misralarda "mən" anlayışı bütöv xalqın simvoluna çevrilir. Şair özünü yalnız bir insan kimi deyil, qalib ordunun döyüşçüsü, Azərbaycanın qəhrəmanlıq ənənələrinin davamçısı kimi təqdim edir. Burada "övlad" sözü bioloji yox, mənəvi və tarixi məna daşıyır. O, xalqın tarixinin, mədəniyyətinin və dövlətçilik ənənələrinin varisi olduğunu bəyan edir.

Şeirin diqqət çəkən əsas xüsusiyyətlərindən biri tarixi şəxsiyyətlərin ardıcıl və sistemli şəkildə poetik mətnə daxil edilməsidir. Bu şəxsiyyətlər sadəcə ad olaraq çəkilmir, hər biri müəyyən ideyanın rəmzi kimi təqdim edilir.

İlk növbədə Babək obrazı ön plana çıxır:

***Zalımın zülmünə təhəmmülüm yox,***
***Babəklər yurdunun hürr övladıyam!***

Babək Azərbaycan tarixində azadlıq ideyasının, mübarizənin və əyilməz iradənin simvoludur. Şair Babəkin adını çəkərkən onu keçmişdə yaşamış tarixi şəxsiyyət kimi deyil, bu gün də yaşayan ruhun daşıyıcısı kimi təqdim edir. Burada "hürr övladıyam" ifadəsi milli istiqlal düşüncəsinin poetik ifadəsinə çevrilir.

Növbəti bənddə müəllif Azərbaycanın böyük mütəfəkkirlərinə üz tutur:

***Ustadım Nəsimi, sözümüz sözdü,***
***Ədalət, həqiqət bağrımda közdü…***

Burada İmadəddin Nəsimi sadəcə klassik şair deyil, həqiqətin və cəsarətin rəmzidir. Nəsimi ömrü boyu söylədiyi həqiqət uğrunda ölümə gedən mütəfəkkir idi. Zaur Ustac həmin mənəvi

xətti davam etdirərək göstərir ki, həqiqət uğrunda mübarizə Azərbaycan insanının xarakterinə çevrilmişdir.
Eyni bənddə yer alan ***“Mövlalar yurdunun nur övladıyam”*** misrası isə Azərbaycanın yalnız qəhrəmanlar deyil, həm də müdriklər, sufilər və mənəviyyat sahibləri yetişdirən məkan olduğunu vurğulayır.

Şair üçün tarix yalnız döyüş meydanı deyil. Tarix həm də mənəviyyat tarixidir.
Dərviş obrazı bunun parlaq nümunəsidir:

***Dərvişəm, müqəddəs sayılır təkkəm,***
***Hülqumdan yuxarı dayanır öfkəm.***

Bu misralar insanın daxili kamilliyini ifadə edir. Əsl qəhrəman yalnız qılınc tutan deyil, öz nəfsinə qalib gələn insandır. Burada Azərbaycan sufilik məktəbinin mənəvi dəyərləri poetik dillə təqdim olunur.
Ardınca gələn:

***Od, ocaq diyarı tanınır ölkəm,***
***Alovlar yurdunun nar övladıyam.***

misraları Azərbaycanın qədim odlar ölkəsi kimi tanınmasına işarə edir. Od burada yalnız təbii sərvət deyil, həyat enerjisinin, milli ruhun və əbədi dirçəlişin rəmzidir.

Şeirin kulminasiya nöqtələrindən biri Azərbaycan dövlətçiliyinin böyük simaları olan Şah İsmayıl Xətai və Nadir şahın yada salınmasıdır.

***Unutma, şah babam Xətai başdı,***
***Nadir şah, mətədə tərpənməz daşdı…***

Burada Xətai yalnız hökmdar deyil, Azərbaycan dövlətçilik tarixinin memarı kimi təqdim olunur. Nadir şah isə sarsılmaz iradənin, güclü dövlət idarəçiliyinin rəmzidir.

Müəllif bu tarixi silsiləni müasir dövrə gətirərək yazır:

***İlham, nə keçilməz sədləri aşdı…***

Beləliklə, şeir tarixdə qalmır. Keçmişlə bu gün arasında ideoloji körpü qurulur. Müəllif göstərmək istəyir ki, Azərbaycan dövlətçiliyinin inkişaf xətti fasiləsiz davam edir və müasir Zəfər

həmin tarixi yolun məntiqi nəticəsidir.
Növbəti bənd xalq qəhrəmanlığı ideyasını daha da genişləndirir:
***Tarixdə Nəbisi, Koroğlusu var,***
***Gen dünya yağıya daim olub dar…***
Burada xalq qəhrəmanı Koroğlu ilə dini-mənəvi qəhrəmanlıq eyni mətn daxilində birləşdirilir. Şair göstərir ki, xalqın qəhrəmanlıq ənənəsi yalnız saraylardan deyil, xalqın öz bağrından doğmuşdur.
"Düşmən qarşımızda yenə oldu xar" misrası isə Vətən müharibəsində qazanılmış tarixi Zəfərin poetik ümumiləşdirilməsidir.
Şeirin son iki bəndi artıq fəlsəfi xarakter daşıyır.
***Göydən Yer üzünə ərmağan, payam,***
***Gündüzlər Günəşəm, gecələr Ayam…***
Burada insan kainatın ayrılmaz hissəsi kimi təqdim olunur. Günəş, Ay və ulduz obrazları milli ruhun əbədiliyini ifadə edir. Ən maraqlı misralardan biri isə budur:
Ən parlaq ulduzdan törəyən boyam…
Bu poetik fikir qədim türk mifologiyasındakı göy mənşəli xalq ideyasını xatırladır. Türk xalqlarının mənəvi yaddaşında göy, ulduz və Günəş müqəddəslik rəmzləri hesab olunur. Zaur Ustac həmin qədim mifoloji qatları müasir poetik düşüncə ilə sintez edir.
Şeirin finalı müəllif yaradıcılığının fəlsəfi mahiyyətini əks etdirir:
***Min bir anlamı var adi "heç"in də,***
***Aqillər yurdunun pir övladıyam!***
Bu misralar təsəvvüf fəlsəfəsinin əsas ideyalarından biri olan "heçlik" anlayışını yada salır. Burada "heç" yoxluq deyil; kamilliyə aparan mənəvi mərhələdir. Şair özünü yalnız tarixin deyil, həm də hikmət məktəbinin davamçısı kimi təqdim edir.
"Övladıyam" şeirində diqqət çəkən əsas cəhətlərdən biri tarixin xronologiya şəklində deyil, milli yaddaş sistemi kimi

təqdim olunmasıdır. Babəkdən Nəsimiyə, Xətaidən Nadir şaha, Koroğludan müasir Azərbaycan Ordusuna qədər uzanan xətt vahid ideyanın – milli varlığın və dövlətçilik ruhunun ifadəsinə çevrilir.

Bu əsərdə tarix sadəcə keçmiş hadisələrin xatırlanması deyil. Tarix yaşayan ruhdur, danışan yaddaşdır, bu günün mənəvi dayağıdır. Müəllif keçmişi nostalji hisslərlə deyil, gələcəyin quruculuğunun ideoloji təməli kimi təqdim edir.

Zaur Ustacın poetik üslubunda diqqət çəkən digər mühüm xüsusiyyət tarixi faktlarla poetik emosiyanın harmoniyasıdır. Şair nə tarixçiyə çevrilir, nə də tarixi yalnız bədii bəzək elementi kimi istifadə edir. Tarix onun üçün milli xarakteri formalaşdıran canlı məktəbdir.

Bu baxımdan "Övladıyam" müasir Azərbaycan poeziyasında milli özünüdərkin poetik nümunələrindən biri hesab oluna bilər. Şeir oxucuda həm fəxr hissi oyadır, həm tarixi yaddaşı yeniləyir, həm də gələcək nəsillərə mənəvi məsuliyyət hissi aşılayır.

Nəticə etibarilə demək olar ki, Zaur Ustac yaradıcılığında tarix keçmişə aid anlayış deyil, bu günü yaşadan və gələcəyi istiqamətləndirən mənəvi qüvvədir. "Övladıyam" şeiri bu baxımdan milli tariximizin, dövlətçilik ənənələrimizin, qəhrəmanlıq salnaməmizin və mənəvi dəyərlərimizin poetik ensiklopediyası təsiri bağışlayır. Burada hər misra Azərbaycanın minillik tarixindən gələn bir səs, hər bənd isə xalqın milli yaddaş kitabının yeni səhifəsi kimi səslənir.

Məhz buna görə də "Övladıyam" təkcə Zaur Ustac yaradıcılığının deyil, müasir Azərbaycan vətənpərvərlik poeziyasının da diqqətəlayiq nümunələrindən biri kimi qiymətləndirilə bilər. Şair tarixi yalnız xatırlatmır; onu yenidən yaşadır, milli ruhun ayrılmaz hissəsinə çevirir və oxucuya bir həqiqəti xatırladır: tarixini yaşadan xalq gələcəyini də özü yazır.

*05.07.2026. Bakı şəhəri.*

**Müəllif: Tuncay ŞƏHRİLİ**

***Hərbçi, tarixçi-filosof***



YUSUF DEMİRAĞ – Türkoloq, Şair, Azərbaycan sevdalısı Türk soydaşımızdır. Şeirlərini Türk, Azərbaycan və Fransız dilində yazan şairin əsərlərində humanist ruhun zərif poetikası öz əksini tapır.
15 avqust Şairin doğum günüdür, bu münasibətlə onu təbrik edir, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Müqəddəs torpaq**

Lalələrin qurban getdi yolunda,
Dalğalandı bayrağın
Azad səmalarında…
Şəhid qanı ilə vətən oldu
Hər qarış torpağın, can Azərbaycan!
Sən bizimdin, bizimsən
Qəlbim Səninlə döyünür,
Sən Xəzərdən Gəncəyə,
Göyəzənə uzanan Odlar Diyarı…

Qoynunda adı bilinməyən şəhidlərin də yatır,
Qucaq açdın, Ana oldun onlara…
İndi körpə fidanların oynayır
Çiçəkli çöllərində…
Sən, lalə ləçəklərinə
Xəfif küləklərin sığal çəkdiyi
Gözəl Gəncəsən,
Mehriban, doğma diyar,
Daim var ol, şad- xürrəm, bəxtiyar!
Sən Cıdır düzündə azad qartal,
Sən Laçında Həkərisən,
Sahilində boy- boy yaşıl ağaçları…
Sən Şuşada Xurşidbanu
Nətəvanım, Üzeyirim, Bülbülüm, Vaqifimsən!
Ürəyimdəsən daim, igid övladların məğrur Anası!
Xəzəri yara- yara gedən
Coşqun, nərə çəkən dalğalarımsan!
Anamın duasısan…
Sən, səssiz qalan uşağın
Ruhuna güc verdin, həmdəm oldun
Səni düşünməkdən yorulmayan
O uşağın ürəyinə muğamınla məlhəm oldun…
Musiqinlə böyüyüb
Arzusuna çatan bir uşaq kimi,
Xatirələrim yada düşür..
Uca Tanrımın güc verdiyi ulu torpaq,
Röyamsan, hər gecə gördüyüm…
Şeirimsən,
Çanaqqaladan Bakıya
Ağrıdağından Qarabağa
Səs-səda salan qardaşlıq dastanımsan…
Könlü bayatılı Nənələrin göz yaşlarısan…
Anamın kəlağayısısan
Rüzgarda çərpələng kimi qanad çırpan

Natəvanımın qəzəlisən…
Qarlı dağların igidlik zirvəsisən, can Azərbaycan!

**Könül**
Gözəl diyar, bir il keçdi
Sənlə ilk görüşümüzdən…
Xəzərin sahilindəki
Nazlı qağayılarla
Göz- gözə gəlişimizdən…
İllər öncə torpağına ayaq basmaq istəyən
O körpə uşaq böyüdü, arzusu gerçək oldu,
Qucaq açdın, getdi, gördü can yurdu…
Adını eşidən kimi gözü dolan həmin o uşaq
Ürəyində yeni xəyallar qurdu…
Nələri qurban verməzdim ki
Səni yenidən görmək üçün….
O uşaq ki,
Hava limanına çatar- çatmaz
Buludların arasından Ağrı Dağını görən
Təyyarə yerə enəndə torpağına sarılan
O uşaq ki, Xəzərə baxanda ruhu dincələn…
Asandırmı Sənli xatirələri unutmaq?!
Başımın üstünd məğrur – məğrur
Dalğalanan bayrağına baxanda,
Ürəyim dağa dönmüşdü…
Bir insan uşaqlıq arzusuna
Bu qədərmi gözəl çatar?!
Göy üzündə qaranquşlar qatar- qatar
Müjdələdi xoş günləri…
Əlbəttə, biz yenidən görüşəcəyik
Gələn kimi, ruhumla
qucaqlayacam varlığını,
Can Laçından yadigar

Bir ovuc torpağını
saxladığım kimi
Qəlbimdə yaşadıram
Sənli, həzin xatirələrimi
Yenə qovuşacağıq sənlə
Can Azərbaycanım,
Qədim, doğma diyarım...

**Ağ göyərçinlər**
(*Milli Qəhrəman Hökumə Əliyevanın
əziz xatirəsinə ithaf*)
Üfüqdə qanad çırpıb yorulan quş
Yuvasına çatanda necə şad olursa
Eləcə sevinir evinə qayıdan insan...
Bir də varlığını bu dünyaya ərmağan edən,
Vətən üçün canından keçən
Humanist qəhrəmanlar var...
İsti ocağın,
Doğma yurdun ətri üçün darıxsalar da
Getməyi seçən qəhrəmanlar,
Vətənin səmasında
Boz buludlar görünəndə dünyası dar...

Gözəl yurdumuzun xəfif təbəssümünü,
Qonaqpərvərliyini,
Ana məhəbbətini yaşadan qəhrəmanlar
Bir gün evlərinə qayıtmadılar...
Ağ göyərçinlər kimi
Qanad çaldı göy üzündə ruhları.
Hər təyyarə enişindəki o alqışlar,
Vətənə qovuşmağın sevinci,
Evimizə dönməyin hüzurudur.
Və əlbəttə,

görmədiyimiz qəhrəmanlara olan minnətdarlıqdır.
Buludların arasından gələn o səs onların səsidir…
Bu səs “Hər şey yaxşı olacaq” söyləyənlərin səsidir…

**Gözəl Laçın**
Yamyaşıl dağlarında
Küləklərə yoldaş olub
Həzin nəğmə deyirəm
Havasına, suyuna
Canım qurban, gözəl Laçın!
Yollar ruhuma məlhəm,
Qarış- qarış cığırlarda gəzirəm…
Qarabağın nəfəsi,
Sevimli, doğma Laçın!
Nazlı- nazlı rəqs edir
Həkərinin buzlu suları,
İllər sonra qürurla
Salamlayır qonaqları…
Həkəri Arazın kiçik qardaşı,
Sanki can Laçının dostu, sirdaşı…
Qartallı dağlarına,
Gül- çiçəkli bağlarına
Zəfər dolu çağlarına
Canım qurban, gözəl Laçın!
Addım- addım seyrə çıxdıq düzləri,
O azad səması çox şad etdi bizləri,
Yoxdur yer üzündə tayı, bənzəri…
Canım qurban, gözəl Laçın!

**Şeirlərin müəllifi: Yusuf DEMİRAĞ**
**DAHA ÇOX ŞEİR BURADA**
**Oxuyun** >> **Gözündə tük var**
**Zaur Ustacın şeirləri haqqında**



## BİZİM MÜSAHİBƏ

**Elçin Nəsib**: ***““Əsl jurnalistlər bu gün çap mediasında var, internet jurnalistikasında da…”***

Tarixin yaddaşına hopmuş hər bir mühüm hadisənin arxasında bir millətin dirçəlişi, maariflənməsi, özünüdərk yolu dayanır. Azərbaycan xalqının bu yolda atdığı ən əlamətdar addımlardan biri, şübhəsiz ki, 1875-ci ilin iyulun 22-də “əkinçi” qəzetinin ilk nömrəsinin nəşri ilə reallaşdı. Həmin gün yalnız bir qəzetin ərsəyə gəldiyi tarix deyildi, həm də milli özünüdərkin, fikir azadlığının və ictimai oyanışın başlanğıcı idi…

Jurnalistlərin peşə bayramı ərəfəsində Sabirabadda çıxan “Kür-Araz” qəzetinin ictimai əsaslarla poeziya və nəsr şöbəsinin rəhbəri,“Yazarlar” jurnalının Aran bölgəsi üzrə təmsilçisi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist Xəlil Mirzə “Kür-Araz” qəzetinin təsisçisi və məsul redaktoru Elçin Nəsiblə həmsöhbət olub. Həmin müsahibəni təqdim edirik:

**Qısa tanıtma:**

Elçin Xəlil oğlu Nəsibov (Elçin Nəsib) 1958-ci il aprelin 16-da Gədəbəy rayonunun Gədəbəy qəsəbəsində anadan olub. BDU-nun jurnalistika fakültəsini bitirib. Əmək fəaliyyətinə 1975-ci

ildə kitabxana müdiri kimi başlayan E.Nəsib öz taleyini jurnalistika ilə bağlayıb.
1976-cı ilin fevralından Sabirabadda çıxan rayon qəzetində müxbir, yerli radionun redaktoru, həmin qəzetdə sənaye, tikinti və nəqliyyat, kənd təsərrüfatı, aqrar-sənaye, iqtisadiyyat şöbələrinin müdiri, baş redaktorun müvini, baş redaktor vəzifələrində çalışıb.
Bir sıra respublika mətbuatının bölgə müxbiri,“Yeni Muğan” qəzeti baş redaktorunun I müavini, “Respublikaçılar” qəzetinin baş redaktoru olub. Xarici ölkələrin mətbuatında bir sıra maraqlı yazılarla çıxış edib. Eyni zamanda onun haqqında xarici ölkələrin mətbu orqanlarında maraqlı yazılar dərc olunub. Bir sıra video-çarxlara ssenarilər yazıb. 2022-ci ilin oktyabrından 2026-cı ilin yanvarınadək “Muğanın səsi” qəzetinin baş redaktoru olub. 2026-cı il yanvarın 28-dən “Kür-Araz” qəzetinin təsisçisi və məsul redaktoru olmaqla bərabər,”Muğan-Şirvan” qəzetinin təsisçisi və baş redaktorudur.
E.Nəsib ailəlidir, 2 övlad atasıdır. Böyük oğlu Ərtoğrul Aprel döyüşlərində və Vətən müharibəsində, kiçik oğlu Nəsib isə 2022-ci ildə “Antiterror əməliyyatı”nda (“Qisas”) iştirak edib.
Elçin Nəsib Sabirabadda ədəbi mühitin formalaşmasında mühüm rol oynayır. 26 ildir ki, “Suqovuşan” Ədəbi Məclisinin rəhbəridir. Ədəbi məclisin kitab-almanaxlarını çapdan buraxır.
O, Azərbaycan Yazıçılar Birliyi Aran Bölməsinin orqanı “Aran” jurnalı baş redaktorunun müavinidir. “İllər aparır bizi”, “əkinçi”də maarifçilik ideyalarının təbliği”, “Sabirabad mətbuatı tarixi”, “Ədəbi düşüncələr”, “Xatirələrdə yaşayanlar”, “İgidlər yenilməz, şəhidlər ölməz”, “Sabirabad qarpızı”, “Musahibə”, “Sabirabad teatrı” kitablarının müəllifidir. Onlarla kitabın tərtibçisi, ön söz yazanı, redaktoru olan E.Nəsibin “Sabirabad futbolu” kitabı da çap olunmaq üzrədir. Bir sıra mükafatlara layiq görülüb.

-Gəlin söhbətə həyat yolundan başlayaq…

-Orta məkəb illərimdə məni divar qəzetinin redaktoru seçdilər. Bu o vaxt idi ki, artıq qələm təcrübələrim respublika qəzetlərində çap olunurdu. 1975-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə qiyabi qəbul edilməklə (onu da deyim ki, mən qəbul olan il ilk dəfə üç turdan ibarət yaradıcılıq müsabiqəsi keçirilməyə başlamışdı, jurnalistika fakültəsinə sənəd vermək istəyənlər hökmən qəzet və jurnallarda çıxış etmiş olmalıydı, həmin yazılar əsasında rəy verilirdi ki, bu gəncdən jurnalist olar, ya olmaz) 1976-cı ilin fevralından Sabirabadda çıxan "Muğan" qəzetində müxbir kimi əmək fəaliyyətinə başladım…Və bu günə qədər də seçdiyim yoldayam…
-Elçin müəllim, "Sabirabad mətbuatı tarixi" kitabının müəllifi kimi, istərdim rayon qəzetinin keçdiyi inkişaf yoluna nəzər salaq…

-Sabirabad mətbuatının tarixi 1930-cu il avqustun 8-dən başlayır. Əslində rayon qəzetini zaman özü yaratmışdır. Ötən əsrin əvvəllərində dairə kimi ayrı-ayrı qəza və mahalların tərkibində fəaliyyət göstərən Petropavlovkaya 1930-cu ildə inzibati rayon statusu verilməklə onun rəsmi mətbu orqanını təsis etmək barədə qərar qəbul olunmuşdur. Bir il sonra rayona Azərbaycanın böyük satira ustası M.Ə.Sabirin adı verilmişdir. Qəzet bir vərəq, yəni iki səhifə həcmində, A-3 formatında buraxılmışdır. Materiallar əl şriftləri ilə yığılır, mexaniki üsulla çap olunurdu. Sonralar qəzet 4 səhifə həcmində çıxmağa başlamışdır. Qəzet 1930-1962-ci illərdə "Pambıq cəbhəsində", 1962-ci ildən 1992-ci ilədək "Muğan", həmin tarixdən sonra "Suqovuşan" və nəhayət, 2020-ci ildən "Muğanın səsi" adı ilə çıxmışdır. 1930-cu ildən 2026-cı ilədək fəaliyyət göstərən qəzet Azərbaycan mətbuatının inkişafında mühüm rol oynamışdır.

Tarixi zərurət nəticəsində təsisçilərin qərarı ilə öz fəaliyyətini dayandıran “Muğanın səsi”nin missiyasını yeni hüquqi statusda “Kür-Araz” qəzeti davam etdirir. Öz mənbəyini Türkiyə ərazisindən götürərək Sabirabadda qovuşan məmləkətimizin iki böyük çayının adını daşıyan qəzet MEDİA Reyestrində qeydiyyata alınaraq 2026-cı il yanvar ayının 28-dən fəaliyyətə başlamışdır.

-Yəqin “Kür-Araz” qəzeti redaksiyasında Sabirabadın mətbuat tarixini əks etdirən muzeyi də keçmişi yaşatmaq üçün yaratmısınız...

-İndiki dövrdə rayon mətbuatını tarixləşdirməyə ehtiyac duyulurdu. Muzeyin açılması hər şeydən əvvəl “Kür-Araz” qəzetinin kollektivinin vətəndaşlıq sevgisindən, keçmişimizə hörmətlə yanaşmağımızdan irəli gəldi. Muzeyin ekspozisiyasında toplanmış eksponatlar, sənədlər mətbuat tarixinin ötən dövrləri haqqında ətraflı bilgilər verir. Məsələn, ziyarətçilər öyrənirlər ki, “Muğan” qəzetinin həyatında 1969–1982-ci illər inkişaf dövrü olub. O dönəmdə Azərbaycan KP MK-nın 1-ci katibi olan, ümummilli lider Heydər Əliyev hər mövsümdə Sabirabada səfər edir, pambıq tarlalarında, taxıl zəmilərində, heyvandarlıq komplekslərində əməkçilərlə görüşürdü. Pambıqçılıq rayonlarının zona müşavirələri də, adətən, Sabirabadda keçirilirdi. Bu hadisələr “Muğan” qəzetinin səhifələrində yer alan qiymətli materiallar olurdu. Həmin dövr günaşırı çıxan qəzetin tirajı 20 minə yüksəlmişdi. Ulu öndərin bütün tədbirlərində “Muğan”ın əməkdaşları da yaxından iştirak edirdilər. Bu gün rayonun Heydər Əliyev Mərkəzindəki şəkillərin böyük bir qismi məhz “Muğan” qəzetinin əvəzsiz xəzinəsindəndir.

Muzeydə “Ümummilli lider Heydər Əliyevin Sabirabada səfərləri”, “Sabirabad mətbuatının klassikləri”, “XX–XXI əsrlərdə Sabirabadda nəşr olunmuş mətbuat orqanları”, “İzi

qalan jurnalistlər" bölmələrində fotoşəkillər, müxtəlif illərdə dərc olunmuş qəzetlər, Sabirabad jurnalistlərinə aid kitablar, onların şəxsi əşyaları, sənədləri və s. yer alıb.
Muzeyin yaradılması Sabirabad jurnalistikasının bu günü və gələcəyi üçün əlamətdar hadisədir. Sabirabadlı qələm ustadlarının varislərinin muzeyə bağışladıqları sənədlər və fotolar insanda zəngin təəssürat yaradır. Bizim hamımızın borcumuz muzeyi zənginləşdirməkdir. Arxivlərdə olan digər sənədlər, eksponatlar muzeyə təqdim edilməlidir ki, təəssürat daha zəngin və bütöv olsun.

-Müstəqillik dövrünün jurnalistikasını keçmişlə necə müqayisə etmək olar?

-Sovet dövrü ilə indiki dövrün jurnalistikasını müqayisə etsək, həm müsbət, həm də mənfi cəhətlərin olduğunu görərik. Sovet dövrü partiyalı sistem idi, istədiyin başqa mətləbi yaza bilməzdin. Sovet ideologiyası, Kommunist partiyası nəyi diqtə edirdisə onu yazmalıydıq. Sovet dövrü jurnalistikasını xarakterizə etmək üçün bircə misal çəkmək istəyirəm. Yazılarımın birində Mirzə Fətəli Axundovu dahi sənətkar kimi göstərmişdim. Mənə irad tutmuşdular ki, "dahi" sözü ancaq Lenin haqqında işlənə bilər. Bir sözə görə belə baş ağrıdırdılar, nahaq yerə incidirdilər. O dövrün mətbuatını xarakterizə etmək üçün düşünürəm ki, elə bu misal yetərlidir. Amma o dövrdə qəzet alıcılığı yüksək idi. O vaxt bütün xərci dövlət çəkirdi. Çünki mətbuat onun ideologiyasına xidmət edirdi. Müstəqillik dövründən sonra isə qəzetlər tiplərə, qruplara bölünməyə başladı: iqtidar və müxalifətyönümlü mətbuat, azad mətbuat, ayrı-ayrı şəxslərin buraxdığı özəl mətbuat və sair. Ona görə də istər-istəməz burada artıq fərqlər meydana gəldi...
-Müasir dövrümüzdə sosial media da meydana gəlib. Hansı vacibdir, internet, yoxsa çap mediası?

-Məlumdur ki, operativliyinə görə ənənəvi jurnalistika sosial mediadan geridə qalır. Lakin bu o deməkdeyildir ki, sosial mediada verilən məlumatların hamısı doğrudur… Bir də görürsən ki, həqiqəti əks etdirməyən xəbəri kimsə media və sosial şəbəkələrdə yaydı. İstifadəçilər də mənbə göstərmədən və dəqiqləşdirmədən kütləvi şəkildə onu götürüb tirajladı… Nəticədə yalan və qeyri-rəsmi bir məlumat ortaya çıxdı. Bu cür dezinformasiya isə cəmiyyətdə yanlış təsəvvür formalaşdırır, ictimai narahatlığa səbəb olur və informasiya təhlükəsizliyinə mənfi təsir göstərir…Hər gün agentlik və saytlarda, sosial şəbəkələrdə qarşımıza bir-birinin təkrarı olan istinadlı, istinadsız minlərlə xəbər çıxır. Bəlkə də bir xəbərlə gün ərzində ayrı-ayrı saytlar, sosial şəbəkələrin təqdimatı ilə dəfələrlə qarşılaşırıq. Çünki indi özü xəbər istehsal edən agentlik və saytlar çox azdır. İnsanlara xəbər ötürən “jurnalistlər” yeni xəbər axtarışına çıxmır, oradan-buradan mənimsəməklə xəbər yaradırlar. Heç şübhəsiz, əsl jurnalistlər bu gün çap mediasında var, internet jurnalistikasında da…Lakin bununla belə, indi çap, xüsusilə də internet mediasında bir kitab belə oxumayan, sözün, cümlənin, mətbuatın nə demək olduğunu əsla anlamayan, jurnalistikaya yamaq “jurnalistlər”ə də rast gəlmək olur…
Əslində hər ikisi vacibdir. Lakin çap mediası dünənimiz kimi, həm də sabahımızdır. İnternet mediasına bel bağlamaq olmaz. Çünki bu gün saatlarla qopa bilmədiyimiz internetin, sosial şəbəkələrin yaddaşı bir anın içində silinib gedə bilər. Odur ki, internet mediası bizim deyil, çap mediası isə necə deyərlər, əlçatandır. İllər əvvəl verilmiş yazını internetdən tapmaq bu gün müşkülə çevrilir. İnternet mətbuatına arxayın olub yazılı mətbuatı itirmək olmaz. Bu, xalqın tarixinin itməsinə səbəb ola bilər. Onu qorumaq lazımdır. Tarixi faktların ənənəvi kağız daşıyıcıda, daha etibarlı yazılı mənbələrdə əbədiləşdirməyin vacibliyi həmişə öz əhəmiyyətini saxlayır. Bu gün baş verən hadisələr qəzet və jurnalların arxivlərində tarixləşir. Lazım gələndə qəzet və

jurnalları vərəqləməklə, keçmişlə tanış olarkən sanki həmin dövrə qayıdırsan. Bir sözlə, biz nəyi əlimizdə tutub saxlaya biliriksə, o bizim ola bilər.
-Jurnalist əxlaqı, etikası ilə əlaqədar sözünüz...

-Jurnalistlər siyahısında adamların çoxluğu, əsl qələm sahiblərinin, yaxşı yazanların azlığı məni daim narahat edir. Kimi görürsən, qoltuğunda qovluq deyir: "jurnalistəm". Buna görə də mətbuatımızı təsadüfi adamlardan qorumaq lazımdır. Əks halda zərbə istedadlı adamlara dəyir. Jurnalist davranışı, ətrafa münasibəti ilə mənfi emosiya doğurmamalıdır. Bütün mövqelərdə vicdadının səsinə qulaq asmalı, qərəzkarlıqdan uzaq olmalıdır. Demokratik təsisatlara və hamı tərəfindən qəbul olunmuş əxlaq normalarına hörmət etməlidir.
-Siz eyni zamanda "Suqovuşan" Ədəbi Məclisin rəhbərisiniz. Məclisin mövcud durumu və fəaliyyəti barədə danışın.

-Məclisimiz yazarları öz işığında cəm edib, istedadlıların üzə çıxması üçün fəaliyyət göstərir. Biz onların taleyüklü məsələləri ilə maraqlanırıq. Şair və yazıçıların əsərlərini məclisin müzakirəsindən sonra yaxşılarını seçib "Suqovuşan" Ədəbi Məclisinin almanaxlarında kitab halında buraxırıq. Məclis üzvlərimizin öz vəsaitləri hesabına şeir, hekayə, povest və romanları kitab halında çap olunur. Ədəbi məclisimiz bir sıra görüşlər, şairlərin yaradıcılıq gecələrini də keçirir.

-Niyə məhz "Suqovuşan", Aranla, bölgələrlə bağlı ədəbi məclisinizə daha tutarlı bir ad seçə bilməzdinizmi?

-Əgər söhbət həqiqi ədəbiyyatdan, Vətən sevgisindən gedirsə, onda bizim də fikirlərimiz, düşüncələrimiz yeni və fərqli olmalıdır. Biz bu adı düşünülmüş şəkildə qoymuşuq. Ona görə ki,

Azərbaycanın iki nəhəng çayı məhz bizim ərazidə-Sabirabadda qovuşur. Bu da təbiətin bu günə kimi açılmayan bir sirri, möcüzəsidir. "Suqovuşan" da simvolik məna daşıyır. Hətta rayonda bu adda kənd də var. Bir vaxtlar rayon qəzeti də həmin adla çıxırdı. Həm də Kür və Araz bütövlükdə Azərbaycan deməkdir. Vətəni düşmənlərimiz şaqqaladılar. Hissələrə kəsik-kəsik edib bölsələr də, Kür və Araz çayı torpaqlarımızı birləşdirir və bizi bir olmağa çağırır. Bizim də silahımız qələm və onun ucundan süzülüb gələn müqəddəs sözdür. Bizim ədəbi məclis məhz bu ruhda köklənib. Ümumiyyətlə, biz "Suqovuşan" Ədəbi Məclisində bütöv Vətəni, Azərbaycanı görürük. Bu, həm də Arazın o tayındakı qardaşlarımızın eşqi, arzusu deməkdir. Burada "eşq" Vətən, "arzu" isə xalqımızın birliyi deməkdir.

-Bölgə mətbuatının hazırkı durumu Sizi qane edirmi?

-Qəzet təsis etməyin nə qədər asan, lakin onu çap etdirib dövriliyinin saxlanılmasının nə qədər çətin olduğunu bütün naşirlər bilirlər. Bütün bunlara baxmayaraq, "Kür-Araz" bu gün də rayon mətbuatının ən yaxşı ənənələrini qoruyub saxlamağa çalışır, hüquqi, demokratik və vətəndaş cəmiyyəti qurmaq istiqamətində irəliləyən Azərbaycanımıza xidmət edir
-Maraqlı müsahibə üçün çox sağolun. Fürsətdən istifadə edərək, Sizi, "Kür-Araz" kollektivini və bütün dəyərli media təmsilçilərimizi qarşıdan gələn Milli Mətbuat Günü münasibəti ilə təbrik edirəm! Bu çətin, məsuliyyətli və şərəfli peşəni fədakarlıqla yerinə yetirdiyinizə və ölkəmizdə mətbuatın inkişafı üçün çalışdığınıza görə sizə dərin təşəkkürümü bildirirəm. Jurnalistlərə gələcək fəaliyyətlərində uğurlar, xoşbəxtlik və cansağlığı arzulayıram!

**Söhbətləşdi: Xəlil Mirzə**
***Şair-publisist, AYB-nin üzvü***






**ZAUR USTAC – GÜL ƏTİRLİ KİTAB – PDF**

## QƏNDABIN XANIMIN YAZILARI

## I>>ZAUR USTACIN YAZILARI

KİTABEVİM.AZ
kitab marketi

**Mustafa Müseyiboğlu adına kitabxana**


Şuşa

# YURDUMUZ ÇİÇƏKLƏNİR

*(Qarabağa birinci səfərim)*

**Qarabağa səfərimiz səhər açılmamış başladı. 21 iyun 2026-cı il, səhər saat 4-də oyanıb hazırlaşdıq, saat 5-də isə yola çıxdıq. Kiçik səfər qrupumuz sürücü Arzuman əmi və "Yazarlar"jurnalının yaradıcı heyəti; Ustad (Zaur Ustac), Tuncay (Tuncay Şəhrili), Gülü bir də bəndəniz olmaqla 5 nəfərdən ibarət idi. Qarşıda bizi uzun, amma bir o qədər də maraqlı bir yol gözləyirdi. Yol boyu hər kəsin fikri bir yerdə idi – illər boyu həsrət qaldığımız Qarabağı görmək.**

Qarabağa – işğaldan azad olunmuş ərazilərə daxil olduqdan sonra ilk dayanacağımız Ağdam oldu. Burada Ağdam məscidini ziyarət etdik. Məscidin həyətində dayanarkən insan istər-istəməz keçmişi xatırlayırdı. Şəhidlərimizin ruhuna dualar oxundu, salavat çevrildi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ustad və Tuncay məsciddə namaz qıldı. Həmin an hər kəsin qəlbində vətən sevgisi hiss olunurdu.

Daha sonra yolumuza davam etdik. Xocalı və Xankəndi istiqamətində hərəkət etdik. Yolboyu gördüyümüz mənzərələr Qarabağın yeni həyatından xəbər verirdi. Xankəndidə diqqətimi xüsusilə bir heykəl çəkdi. Heykəlin üzərində erməni dilində yazı vardı. Bu mənzərə bölgənin keçdiyi mürəkkəb, qalmaqallı tarixi bir daha xatırladırdı.

Səhər yeməyi üçün Xankəndi şəhərində yolüstü bir restoranda dayandıq. Çay süfrəsi arxasında həm dincəldik, həm də ətrafı seyr etdik. Uzaqdan görünən Zəfər tağı, Qarabağ Universiteti, dağların qoynunda uzanan yollar və yeni qurulan yaşayış məntəqələri insanda qürur hissi yaradırdı.

Qarabağda diqqətimi çəkən məqamlardan biri də şəhər həyatının canlanması oldu. Küçələrdə avtobuslar işləyirdi, marketlər fəaliyyət göstərirdi. Parklar, istirahət məkanları, yeni tikililər bölgənin yenidən dirçəlişini açıq şəkildə nümayiş etdirirdi. Parkın bir hissəsində piano yerləşdirilmişdi. Dedilər ki,

axşamlar burada gənclər toplaşır, musiqi ifa edir, şəhərə xüsusi ab-hava qatırlar.
Səfərimizin növbəti ünvanı Şuşa idi. Azərbaycanın mədəniyyət paytaxtı bizi özünəməxsus ruhu ilə qarşıladı. Burada güllə izləri daşıyan Üzeyir Hacıbəylinin, Xurşidbanu Natəvanın və Bülbülün heykəllərini gördük. Hər biri Qarabağın ağrılı keçmişinin və yenidən dirçəlişinin canlı şahidi kimi görünürdü.
Natəvanın malikanəsinin ətrafında gəzdik, xatirə şəkilləri çəkdirdik. Bir qədər sonra saz sədaları eşidildi. Cıdır düzü seryangahına tamaşa etdim, yan hissədə saz ifa edən, oynayan insanlar qədim Azərbaycan musiqisinin gözəlliyini yaşadırdılar. Şuşanın ruhu məhz belə məqamlarda daha dərindən hiss olunurdu.
Dostlarımla birlikdə şəhəri gəzdik, şəkillər çəkdik, tarixi küçələri addım-addım dolaşdıq. Hətta bir sazı əlimə alıb simlərinə toxunmaq imkanı da əldə etdim. “Baş sarıtel” ifasında Ustad şeir dedi. O an özümü bu şəhərin əsrlərdən gələn mədəni yaddaşının bir hissəsi kimi hiss etdim.
Çiçək yığan, saçlarına dən düşsə də ruhu gənc qalan bir nənə gördüm. Ona yaxınlaşıb:
— Nənə, olar çiçəklərinizi çəkim? — dedim.
Gülümsəyərək cavab verdi:
— Olar, nənəsinin çiçəyi.
Səmimiyyəti məni heyran etdi.
— Siz necə də gözəl, necə də şipşirin nənəsiniz, — dedim.
O isə üzümə baxıb:
— Sən də nənəsinin şəklini çəkən balaca şirinsən də, — söylədi.
Nənədəki o sevinc, o doğmalıq hissi yazı ilə də ifadə edə bilmərəm o gözlərindəki hiss, balaca qız uşağı kimi ətarfı gəzərək əllərindəki yığdığı çiçəklər gülümsəyən üzü, ürəyindəkilər gözlərindən oxunurdu.
Bəzən insanın yaşı artır, amma ruhu heç vaxt qocalmır. O nənə də məhz belə insanlardan idi.

Səfərimizin növbəti dayanacağı İsa bulağı oldu. Ətraf yaşıllığa bürünmüşdü. İnsanlar ailələri ilə birlikdə istirahət edir, təbiətin gözəlliyindən zövq alırdılar. Burada Qarabağın təbiətinin necə zəngin və füsunkar olduğunu daha yaxından hiss etdik.
Daha sonra Turş su bulağına yollandıq. Bulaqdan axan mineral su ətrafdakı insanların böyük marağına səbəb olurdu. Su müəyyən vaxtlarla buraxıldığından bir müddət gözlədik. Bu vaxtı çəmənlikdə keçirib dincəldik, yemək yedik və təbiətin gözəlliyindən zövq aldıq.
Bulağın ətrafında gəzərkən maraqlı bir daş tapdım. Bu, xına daşıdır. Daşı su ilə isladıb sürtdükdə xına rəngi əmələ gəlirdi. Gülünün əllərinə bu xınadan çəkdik. Bu kiçik kəşf səfərin yaddaqalan məqamlarından birinə çevrildi.
Sonra yolumuz Laçına düşdü. Laçına daxil olan kimi tamam başqa bir mənzərə ilə qarşılaşdıq. Dağlar, yaşıl çəmənliklər, səliqəli evlər və təmiz küçələr insanda heyranlıq yaradırdı. Sanki təbiət burada bütün gözəlliyini səxavətlə sərgiləmişdi.
İlk olaraq şəhərin panoramik mənzərəsini izləmək üçün ayrılmış əraziyə getdik. Dağın zirvəsindən Laçını seyr etdik. Sonra şəhər mərkəzində bir az gəzib dolandıq. Laçın Seyrangahında müdhiş mənzərəni seyr etdikdən sonra Həkərinin sahilinə endik. Gəzə-gəzə Sus kəndinə getdik. Burada insanların üzündə fərəh və sevinc hissini görmək çox qürurverici idi. Sus kəndində Həkəri çayının sahilində yerləşən restoranlardan birində nahar edib, dincəldik. Onu da qeyd edim ki, qiymətlər çox münasibdir.
Restoranın yaxınlığından axan Həkəri çayının səsi ətrafa xüsusi rahatlıq bəxş edirdi. Çayın sahilində dayanıb mənzərəni izləmək insana sözlə ifadə olunmayan bir rahatlıq verirdi.
Laçında yeni yaşayış məhəllələri, marketlər, parklar və uşaqlar üçün yaradılmış istirahət məkanları diqqətimizi çəkdi. Hiss olunurdu ki, burada insanların rahat və təhlükəsiz yaşaması üçün hər bir şərait yaradılıb.
Qayıdış yolunda bir neçə yerdə dayanaraq dağların bəxş etdiyi

nemətləri topladıq. Kəklikotu, daş yarpızı və müxtəlif çöl bitkiləri yığdıq. Biz gənclər isə çəmənlikdə gəzişərək papatya güllərindən çələnglər hazırladıq. Təbiətin qoynunda keçən həmin anlar səfərin ən səmimi xatirələrindən biri oldu.
Artıq səfərimizin sonuna yaxınlaşırdıq. Qayıdış yolunda yenidən təbiətin qoynunda qısa fasilələr verdik, dağ havasını ciyərlərimizə çəkdik. Yorğun olsaq da, hər birimizin üzündə məmnunluq vardı.
Gecə saat 12 – 1 radələrində Bakıya çatdıq. Arxada qalan bir gün ərzində təkcə Qarabağın şəhərlərini gəzməmişdik. Biz həm də tarixə toxunmuş, azadlığın dəyərini bir daha hiss etmiş, yenidən qurulan yurd yerlərimizin şahidi olmuşduq. Qarabağdan ayrılarkən yaddaşımızda yalnız gözəl mənzərələr deyil, həm də qürur, minnətdarlıq və ümid hissləri qalmışdı. Şuşada çəkdirdiyimiz bu fotonu təəssüratılarıma əlavə etməkdən qürur duyuram! Yaşasın Azərbaycan!  Fotolar:






Şuşa


Şuşa













*Ustadım Zaur Ustac və Arzuman əmi Həkəri çayının sahilində.*



**Müəllif:** **Südabə Mətanətli**

*"Yazarlar" jurnalının İƏÜM-i, AJB-nin üzvü, jurnalist, yazıçı*

**Südabə Mətanətlinin yazıları**

## QEYDLƏR



KİTABEVİM.AZ
kitab marketi
www.KİTABEVİM.AZ




**MURAD MƏMMƏDOVUN YAZILARI**

**GÜNNUR AĞAYEVANIN YAZILARI**

**HƏCƏR ATAKİŞİYEVANIN YAZILARI**

**“ARİSTOTEL POETİKASI” RUBRİKASI**

**I>>>>>>BU HEKAYƏNİ MÜTLƏQ OXU<<<<<<I**

**Mustafa Müseyiboğlu adına kitabxana**

## “TƏRƏFSİZ ƏDƏBİYYAT TARİXDİR!”

Jurnal bu layihə çərçivəsində ödənişsiz əsaslarla nəşr olunur.
**Redaksiyanın ünvanı:** Az-1012, Bakı, M.Xiyabani-14a
Dövlət qeydiyyatı: № 2319, 16.08.2007-ci il.
Əvvəlki illərdə 15 xüsusi buraxılışı olub.
Dövri olaraq 2021-ci ildən çıxır.

E-mail: zauryazar@mail.ru

Rəsmi saytı: **WWW.YAZARLAR.AZ**
Telefon: (012) 430-14 -81 (+994) 70-390-39-93

“Yazarlar”ın redaksiyasında yığılıb səhifələnir,
**“JET PRİNT ÇAP MƏRKƏZİ”**NDƏ çap olunub.
***(“Jet Print”də operativ xidmət: +994557232221***).
Çapa imzalanıb: 01.08.2026
Sifariş: № 45
Format: A 5
Tiraj: Məhdud sayda (kitabxanalar üçün).
Elektron variant var.

Qiyməti: **PULSUZ.**

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.